RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 198 (9077) ÇƏRŞƏNBƏ, 14 sentyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycan Silahlı Qüvvələri sərhəd boyunca vəziyyətə nəzarət edir



## Ali Baş Komandan operativ müşavirə keçirib

Sentyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Ermənistan-Azərbaycan sərhədində Ermənistanın törətdiyi təxribatlarla bağlı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin rəhbər heyətinin iştirakı ilə operativ müşavirə keçirib.

AZƏRTAC xəbər verir ki, müşavirədə aidiyyəti üzrə məruzələr təqdim edilib, Ermənistan silahlı qüvvələrinin iki dövlətin sərhədində törətdiyi təxribatların qarşısının alındığı, bütün müvafiq vəzifə və tapşırıqların yerinə yetirildiyi bildirilib.

Qeyd olunub ki, yaranmış gərginliyin məsuliyyəti tam şəkildə Ermənistanın siyasi rəhbərliyinin üzərinə düşür. Azərbaycan Respublikasının Silahlı Qüvvələri sərhəd boyunca operativ vəziyyətə nəzarət edir.

## Azərbaycan Silahlı Qüvvələri cəmi 7 saat davam edən uğurlu əməliyyat nəticəsində:

- Laçın, Kəlbəcər və Zəngilan istiqamətində sərhəddə Ermənistanın qurduğu bütün hərbi təyinatlı obyektləri darmadağın edib;
- bölgədə bütün nəqliyyat-kommunikasiya sistemini, çox mühüm yüksəklikləri nəzarətə götürüb;
- Ermənistanın xeyli sayda hərbi texnikasını, yüz milyonlarla dollardan artıq dəyəri olan iki S-300 raketini, 200 nəfərə yaxın canlı qüvvəsini, çoxlu sayda hərbi obyektini və onlarla postunu məhv edib.

## Türkiyə hər zaman Azərbaycanın yanındadır



Sentyabrın 13-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı Prezident Rəcəb Tayyib Ərdoğan Ermənistan silahlı qüvvələrinin dövlət sərhədində törətdiyi genişmiqyaslı təxribatların qarşısının alınması zamanı hərbi qulluqçularımızın şəhid olması ilə əlaqədar Prezident İlham Əliyevə, onların yaxınlarına və Azərbaycan xalqına dərin hüznlə başsağlığı verdi.

Dövlətimizin başçısı başsağlığına görə minnətdarlığını bildirdi.

Rəcəb Tayyib Ərdoğan qardaş Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu qeyd etdi və ölkələrimizin həmrəy olduqlarını vurğuladı.

Prezident İlham Əliyev qardaş Türkiyənin hər zamankı kimi, Azərbaycanın yanında olduğunu, ölkəmizin də hər zaman bütün məsələlərdə qardaş Türkiyənin yanında olduğunu qeyd etdi.

Ermənistanın genişmiqyaslı hərbi təxribatının qarşısının Silahlı Qüvvələrimiz tərəfindən şücaətlə və yüksək peşəkarlıqla alındığını, şəhidlərimizin qanının yerdə qalmadığını, onların intiqamının alındığını deyən Prezident İlham Əliyev bu genişmiqyaslı hərbi təxribatların məsuliyyətinin bilavasitə Ermənistanın üzərinə düşdüyünü bildirdi.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bir daha vurğulandı.

Dövlət başçıları gələcək təmaslar barədə fikir mübadiləsi apardılar.

***Prezidentin Mətbuat Xidməti***

## Prezident İlham Əliyev şəhid olmuş hərbi qulluqçularımızın ailələrinə, yaxınlarına və bütün Azərbaycan xalqına başsağlığı verib

Prezident İlham Əliyev şəhid olmuş hərbi qulluqçularımızın ailələrinə, yaxınlarına və bütün Azərbaycan xalqına başsağlığı verib. AZƏRTAC xəbər verir ki, dövlət başçısı bununla bağlı sosial şəbəkə hesablarında paylaşım edib.

Paylaşımda deyilir: "Sentyabrın 13-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Kəlbəcər, Laçın, Daşkəsən və Zəngilan rayonları istiqamətində törətdiyi genişmiqyaslı təxribatların qarşısını alan zaman şəhid olmuş hərbi qulluqçularımızın ailələrinə, yaxınlarına və bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm.

Allah şəhidlərimizə rəhmət eləsin!

Şəhidlərimizin qanı yerdə qalmadı!"




## Ermənistanın genişmiqyaslı təxribatı nəticəsində şəhidlərimiz olub

Sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribat törədilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, genişmiqyaslı təxribatın qarşısı alınarkən Azərbaycan Ordusundan 42, Dövlət Sərhəd Xidmətindən isə 8 hərbi qulluqçu olmaqla, ümumilikdə Silahlı Qüvvələrin 50 hərbi qulluqçusu şəhid olub.

"Şəhid olan hərbi qulluqçularımızın ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralılarımıza Allahdan şəfa diləyirik. Şəhidlərimizin qanı yerdə qalmadı", - deyə nazirliyin məlumatında bildirilib.

Qeyd edilib ki, şəhid olmuş hərbi qulluqçularımızın adlı siyahısı ictimaiyyətə əlavə təqdim olunacaq.

## Birinci vitse-prezident Mehriban Əliyeva şəhid olmuş hərbi qulluqçularımızla bağlı paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ermənistan silahlı qüvvələrinin törətdiyi genişmiqyaslı təxribatların qarşısını alan zaman şəhid olmuş hərbi qulluqçularımızla bağlı instaqram səhifəsində paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralılara tezliklə şəfa, onların ailələrinə güc və səbir versin".



# Azərbaycan öz ərazisində beynəlxalq hüququ bərpa edir



# Azərbaycan ilə AYİB arasında əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edildi



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odil Reno-Bassonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə AYİB arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə edildi. Xüsusilə qeyri-neft sektorunda iqtisadi fəallığın dəstəklənməsi, iş yerlərinin yaradılmasına dair layihələrin reallaşdırılması, dövlət müəssisələri ilə yanaşı, özəl sektorun maliyyələşdirilməsinin artırılmasında, bərpaolunan və alternativ enerji sahəsində Azərbaycanda artıq həyata keçirilən layihələrdə AYİB-in iştirakı və dəstəyi qeyd edildi, gələcək layihələrin həyata keçirilməsində bu iştirakın genişləndirilməsinin önəmi vurğulandı.

Söhbət zamanı nəqliyyat-logistika sahəsində həyata keçirilən fəaliyyətlərə dəstək verilməsi, bu qəbildən ötən gün AYİB ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC arasında imzalanan və 100 milyon dollar məbləğində kreditləşmənin nəzərdə tutulduğu layihənin perspektivləri müzakirə edildi. Həmçinin Avropanın enerji təhlükəsizliyi üçün xüsusi önəm daşıyan "Cənub qaz dəhlizi" layihəsinin genişləndirilməsində Avropa Yenidənqurma və İnkişaf Bankının mümkün iştirakı barədə fikir mübadiləsi aparıldı.

Telekommunikasiya sahəsində əməkdaşlığa toxunuldu, "Gəncə-Yaşıl Şəhər Proqramı" çərçivəsində həyata keçiriləcək "Küçələrin işıqlandırılması" layihəsinə dair Qrant, Kredit və Layihə sazişlərinin imzalanmasının əhəmiyyəti vurğulandı. Oxşar layihələrin ölkəmizin digər şəhərlərində də həyata keçirilməsi perspektivləri müzakirə olundu.

# Prezident İlham Əliyev ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşavirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Filip Rikeri qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə sentyabrın 13-də Ermənistan silahlı qüvvələrinin iki ölkənin sərhədinin Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində törətdiyi genişmiqyaslı təxribatlar müzakirə olundu.

Dövlətimizin başçısı Azərbaycanın Ermənistanın bu təxribatlarına cavab tədbirləri həyata keçirdiyini və baş vermiş təxribatlara görə bütün məsuliyyətin Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşdüyünü qeyd etdi.

Söhbət zamanı regionda sülhün və sabitliyin təmin olunması, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh gündəliyinin davam etdirilməsinin vacibliyi vurğulandı.



# Azərbaycan-Ermənistan dövlət sərhədində yaranmış gərginlik müzakirə olundu

Sentyabrın 13-də ABŞ dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı ABŞ dövlət katibi Ermənistan-Azərbaycan dövlət sərhədində yaranmış gərginliklə bağlı narahatlığını ifadə etdi.

Prezident İlham Əliyev bildirdi ki, bu gərginlik Ermənistanın genişmiqyaslı təxribatları nəticəsində baş verib və buna görə də məsuliyyət tam şəkildə Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür.

Antoni Blinken ABŞ-ın regionda davamlı sülhün və təhlükəsizliyin təmin olunması, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması üçün öz səylərini davam etdirəcəyini qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycanın sülh gündəliyini dəstəklədiyini və bu istiqamətdə səylərin davam etdirilməsinin vacibliyini bildirdi.

***Prezidentin Mətbuat Xidməti***

# Prezident İlham Əliyev Böyük Britaniyanın Azərbaycandakı səfirliyində olub, Kraliça II Elizabetin vəfatı ilə əlaqədar başsağlığı verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfirliyində olub, Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabetin vəfatı ilə əlaqədar başsağlığı verib.





AZƏRTAC xəbər verir ki, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfiri Fergus Ould dövlət başçısını qarşıladı.

Prezident İlham Əliyev matəm kitabına ürək sözlərini yazdı.

Sonra dövlət başçısı səfirlə söhbət etdi.

**Prezident İlham ƏLİYEV:** Çox kədərli hadisədir. Amma həyatın qanunlarını heç kim dəyişdirə bilməz. Bir daha Britaniya xalqına başsağlığı vermək istəyirəm.

**Səfir:** Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Kraliça ilə şəxsən tanış idim. Onunla iki dəfə görüşmüşdüm. Birinci dəfə hələ mən Prezident vəzifəsinə seçilmədən - 1997-ci ildə Bukingem Sarayına dəvət almışdım, Kraliçanın doğum günü münasibətilə. O vaxt SOCAR-ın vitse-prezidenti kimi mənə belə bir dəvət göndərilmişdi. İlk dəfə burada, - təbii ki, orada bir çox adamlar var idi, - sadəcə olaraq, tanışlığımız oldu. Ondan sonra da ölkənizə səfərim çərçivəsində Ülyahəzrət Kraliça ilə görüşmək imkanım olmuşdur. Çox xoş təəssüratlar bağışlayan bir insan idi.

Bildiyiniz kimi, bu yaxınlarda bizim nümayəndə heyətimiz mənim adımdan ona Qarabağ atını hədiyyə etmişdi. O da baxmayaraq ki, artıq səhhətində müəyyən problemlər var idi, özü şəxsən o hədiyyəni qəbul etdi. Bu haqda da məlumat var. O, çox gözəl bir insan, böyük xadim və əlbəttə ki, ilk növbədə, Britaniyanın rəmzi olan tarixi şəxsiyyətdir. Azərbaycan xalqı adından bir daha başsağlığı verirəm.

Krala təbrik məktubu da göndərmişəm. Məktubda da göstərdim ki, əminəm, əlaqələrimiz bundan sonra da uğurla inkişaf edəcək. Çünki bir çox sahələrdə biz, doğrudan da, çox yaxın əlaqələrə çatmışıq və ümid edirəm ki, yaxın gələcəkdə bu əlaqələr daha da genişlənəcək.

**Səfir:** Çox sağ olun. Kraliçanın vəfatı ilə əlaqədar səfirliyə gəldiyiniz üçün çox sağ olun. Həmçinin Kral Çarlza və Baş nazirə göndərdiyiniz başsağlığı məktublarına görə Sizə dərindən təşəkkür edirəm. Göstərdiyiniz diqqət ölkələrimiz arasında münasibətlərin inkişafında çox əhəmiyyətlidir.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

# Bakı şəhərinin Yasamal rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Yasamal rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 1,7 milyon (bir milyon yeddi yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 sentyabr 2022-ci il*

# Türkiyənin Vitse-prezidenti Fuat Oktay Baş nazir Əli Əsədova telefonla zəng edib

Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay sentyabrın 13-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədova telefonla zəng edib.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Türkiyənin Vitse-prezidenti Ermənistan-Azərbaycan sərhədində Ermənistanın törətdiyi təxribatlarla bağlı ölkəmizə dəstəyini və həmrəyliyini ifadə edib, Türkiyə xalqının hər zaman qardaş Azərbaycan xalqının yanında olduğunu bildirib.

F.Oktay Ermənistanın təxribatı nəticəsində hərbi qulluqçularımızın şəhid olması ilə bağlı Ə.Əsədova və Azərbaycan xalqına başsağlığı verib.

Baş nazir başsağlığına görə Türkiyənin Vitse-prezidentinə minnətdarlığını bildirib, Azərbaycanın hər zaman Türkiyənin qardaşlıq dəstəyini hiss etdiyini vurğulayıb. Ermənistan silahlı qüvvələrinin iki dövlətin sərhədində törətdiyi təxribatların qarşısının qətiyyətlə alındığı diqqətə çatdırılıb.

# XİN-də diplomatik korpusun nümayəndələri üçün brifinq keçirilib

Sentyabrın 13-də Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun və Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyevin iştirakı ilə Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri üçün brifinq keçirilib.





Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, brifinq zamanı Kəlbəcər, Laçın və Daşkəsən rayonları istiqamətində Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hərbi təxribatları nəticəsində yaranmış gərginlik və hərbi təcavüzün qarşısının alınması məqsədilə görülmüş təxirəsalınmaz və adekvat tədbirlər barədə iştirakçılara müfəssəl məlumat verilib. Azərbaycan tərəfindən cavab addımlarının məhdud xarakterli olduğu, legitim hərbi hədəflərə yönəldiyi və mülki əhalinin hədəf alınmadığı bildirilib.

Şərti dövlət sərhədində baş vermiş bu təcavüz aktının son günlər ərzində Ermənistan tərəfindən törədilən hərbi və siyasi təxribatlar zəncirinin bir elementi olduğu qeyd edilib. Belə təxribatlar sırasında Azərbaycan, Ermənistan, Rusiya Federasiyası liderləri arasında imzalanmış üçtərəfli bəyanatların müddəalarının Ermənistan tərəfindən kobud şəkildə pozularaq erməni silahlı birləşmələrinin Azərbaycan ərazisindən tam çıxarılmaması, Azərbaycanın ərazilərinin minalanması işinin davam etdirilməsi və şərti sərhədboyu bölgədə hərbiləşmənin artması, nəqliyyat kommunikasiyalarının açılmasına maneçilik törətməsi və sülh prosesinə qarşı destruktiv addımlar atması, sülh müqaviləsi üzrə konkret danışıqların başlanmasına dair Azərbaycan tərəfinin təkliflərinə qarşılıq verməməsi və s. pozuntular diqqətə çatdırılıb.

İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan tərəfindən yenidənqurma işləri aparılan və külli miqdarda sərmayələr qoyulan bir zamanda, hərbi gərginlik zonasına yaxın əraziyə - Zəngilan rayonunun Ağalı kəndinə bir qrup məcburi köçkün ailəsinin geri qayıtması şəraitində regionda hərbi gərginliyin Azərbaycan tərəfinin marağında olmadığı vurğulanıb.

Brifinqin yekununda iştirakçıların mövqeyi dinlənilib və verilən suallar cavablandırılıb.

# Azərbaycan və Rusiyanın xarici işlər nazirləri bölgədə baş vermiş toqquşmaları və gərginliyi müzakirə ediblər

Sentyabrın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı olub.

Nazirliyin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı bölgədə baş vermiş toqquşmalar və gərginlik müzakirə edilib.

Nazir Ceyhun Bayramov bölgədə Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatları nəticəsində yaranmış son vəziyyət, habelə təcavüzün qarşısının alınması məqsədilə Azərbaycan tərəfindən atılan addımlar barədə məlumat verib. Ermənistanın son ay ərzində mütəmadi olaraq mövqelərimizi atəşə tutması, ərazilərimizin minalanması işini davam etdirməsi, üçtərəfli bəyanatlara zidd olaraq erməni silahlı birləşmələrini ərazilərimizdən tam olaraq çıxarmadığı vurğulanıb.

Sergey Lavrov bölgədə qarşıdurmaya yol verilməməsinin zəruri olduğunu, habelə Azərbaycan, Ermənistan və Rusiya Federasiyası liderləri arasında imzalanmış üçtərəfli bəyanatların tam şəkildə icrasının əhəmiyyətini diqqətə çatdırıb.

Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# TBMM-in Sədri Milli Məclisin Sədri Sahibə Qafarovaya zəng edib

Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop sentyabrın 13-də Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya zəng edib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, telefon danışığı zamanı TBMM sədri sentyabrın 13-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Kəlbəcər, Laçın, Daşkəsən və Zəngilan rayonları istiqamətində törətdiyi təxribatlarla maraqlanıb, qardaş ölkənin xalqımıza və dövlətimizə dəstəyini və həmrəyliyini ifadə edib. O, Ermənistanın təxribatları nəticəsində hərbi qulluqçularımızın şəhid olması ilə bağlı özünün və TBMM üzvlərinin adından Sahibə Qafarovaya və Azərbaycan xalqına başsağlığı verib.

Milli Məclisin Sədri Sahibə Qafarova Ermənistan tərəfindən törədilən təxribatlar haqqında həmkarına ətraflı məlumat verib. Spiker başsağlığına görə Mustafa Şentopa və TBMM üzvlərinə minnətdarlığını bildirib, xalqımızın hər zaman qardaş Türkiyənin dəstəyini hiss etdiyini qeyd edib.

*"Azərbaycan"*

# Ceyhun Bayramov Cozef Borellə Ermənistanın Azərbaycana qarşı növbəti təxribatları nəticəsində yaranmış gərginliyi müzakirə edib

Sentyabrın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun Avropa İttifaqının (Aİ) xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Aİ Komissiyasının vitse-prezidenti Cozef Borel ilə telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı tərəflər arasında bölgədə cari vəziyyət və sərhədboyu Ermənistanın Azərbaycana qarşı növbəti təxribatları nəticəsində yaranmış gərginlik müzakirə olunub.

Nazir Ceyhun Bayramov Ermənistanın öhdəliklərini kobud şəkildə pozaraq genişmiqyaslı təxribatlar törətdiyini və mövqelərimizin intensiv atəşə tutulması nəticəsində 50 hərbçimizin şəhid olduğunu, bu təxribatların Ermənistan tərəfindən son aylarda davam edən provokasiyaların tərkib hissəsi olduğunu diqqətə çatdırıb. Azərbaycan Silahlı Qüvvələrinin ölkəmizin ərazi bütövlüyünün qorunması məqsədilə hərbi təxribatlara adekvat cavab tədbirləri həyata keçirdiyi vurğulanıb.

Telefon söhbəti zamanı ali nümayəndə Cozef Borel yaranmış gərginliklə bağlı narahatlığını ifadə edib. Borel Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycanla Ermənistan liderləri arasında danışıqların davam etməsinin vacib olduğunu qeyd edib. Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın sentyabrın 14-də bölgəyə səfər etmək niyyətini diqqətə çatdırıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Tacikistan Azərbaycanla əməkdaşlığın dərinləşməsində maraqlıdır



Milli Məclisin Sədri Sahibə Qafarova Tacikistan Respublikasına rəsmi səfəri çərçivəsində Tacikistan Ali Məclisi Nümayəndələr Palatasının Sədri Mahmadtoir Zokirzoda ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları salamlayan Tacikistan Nümayəndələr Palatasının Sədri Milli Məclisin nümayəndə heyətinin Tacikistana səfərini yüksək qiymətləndirərək bu səfərin və səfər çərçivəsində keçirilən görüşlərin iki ölkə arasındakı münasibətlərin inkişafına müsbət təsir edəcəyinə inandığını bildirib.

Mahmadtoir Zokirzoda parlamentlər səviyyəsində əməkdaşlığın inkişafının əhəmiyyətindən danışaraq belə səfərlərin təcrübə və informasiya mübadiləsi baxımından əhəmiyyətini qeyd edib. Tacikistanın Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verdiyini deyən Nümayəndələr Palatasının Sədri ölkəsinin siyasi, iqtisadi, humanitar sahələrdə əməkdaşlığın dərinləşməsində maraqlı olduğunu vurğulayıb.

O, cari ilin may ayında İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransında iştirak məqsədilə Azərbaycana səfərini, ölkəmizin bu tədbirə yüksək səviyyədə evsahibliyi etdiyini xatırladaraq ölkəmizin yüksək səviyyədə inkişafından məmnunluğunu bildirib.

Tacikistan parlamentinin Nümayəndələr Palatasının Sədri Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyini, hərəkatın parlament əlaqələrini inkişaf etdirmək təşəbbüsünü yüksək qiymətləndirib.

Səmimi sözlərə və yüksək qonaqpərvərliyə görə təşəkkür edən Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanla Tacikistan arasında əlaqələri dostluq və tərəfdaşlıq münasibətləri kimi dəyərləndirib. O, ölkələrimiz və xalqlarımız arasında əlaqələrin dərinləşməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin əhəmiyyətini vurğulayıb, tərəflər arasında imzalanan sənədlərin ikitərəfli əməkdaşlığın inkişafının möhkəm təməllərini yaratdığını qeyd edib.

Milli Məclisin Sədri iki ölkənin diplomatik əlaqələrinin qurulmasının 30 illik yubileyinin tamam olduğunu diqqətə çatdıraraq bir çox sahələrdə ikitərəfli əlaqələrin genişləndirilməsi üçün böyük potensialın olduğunu deyib.

Sədr Azərbaycanla Tacikistan parlamentləri arasında mövcud əməkdaşlıq əlaqələri barədə fikirlərini bölüşüb, Azərbaycan Respublikasının Milli Məclisi ilə Tacikistan Respublikası Ali Məclisinin Milli Məclisi arasında imzalanmış əməkdaşlıq haqqında sazişin parlamentlərarası əlaqələrin inkişafına xidmət etdiyini bildirib.

Sahibə Qafarova iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da irəli aparılması baxımından parlament əlaqələrinin əhəmiyyətini, bu istiqamətdə parlamentlərarası dostluq qruplarının fəaliyyətini xüsusi qeyd edib və vurğulayıb ki, deputatlarımız beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq edirlər.

Milli Məclisin Sədri Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin təsis olunmasından və Azərbaycanda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Bakı Konfransının keçirilməsindən söz açıb. Spiker belə bir inam ifadə edib ki, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi parlament diplomatiyasının və qlobal əməkdaşlığın inkişafına öz töhfələrini verəcək.

Söhbətdə Sahibə Qafarova 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və quruculuq işlərindən bəhs edib. Sədr nəzərə çatdırıb ki, ölkəmiz regionda dayanıqlı sülhün təmin olunması, əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində böyük işlər görür.

Sonra tərəflər müxtəlif sahələrdə münasibətlərin inkişafı, parlamentlərarası əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıblar.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Ceyhun Bayramov fransalı həmkarını Ermənistanın növbəti təxribatı barədə məlumatlandırıb

Sentyabrın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun Fransa Respublikasının Avropa və xarici işlər naziri Katerin Kolonna ilə telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov həmkarına Ermənistanın postmünaqişə dövründə qəbul etdiyi öhdəliklərini yerinə yetirməməsi, üçtərəfli bəyanatlara və liderlər arasında əldə edilmiş razılıqlara zidd olaraq hərbi və siyasi təxribatlara əl atdığı, sentyabrın 12-13-də növbəti dəfə genişmiqyaslı hərbi təcavüz nəticəsində çox sayda hərbi qulluqçularımızın həlak olduğunu diqqətə çatdırıb. Ceyhun Bayramov eyni zamanda indiyə qədər Ermənistan hərbi birləşmələrinin Azərbaycan ərazilərindən tam çıxarılmadığı faktına diqqət çəkərək Ermənistanın təcavüz siyasətindən əl çəkməsinin vacib olduğunu bildirib. Avropa və xarici işlər naziri Katerin Kolonna bölgədə gərginliyə görə dərin narahatlıq keçirdiklərini, Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin davam etməsinin və problemlərin siyasi-diplomatik müstəvidə həll edilməsinin vacib olduğunu vurğulayıb.

Telefon danışığı zamanı qarşılıqlı maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

# Xarici işlər naziri Ceyhun Bayramovun BMT-yə məktubu təşkilatın sənədi kimi yayılıb







Xarici işlər naziri Ceyhun Bayramovun Ermənistanın qeyri-qanuni hərbi fəaliyyətini davam etdirməsi, eyni zamanda Azərbaycanın ərazisinə yeni minaların basdırılması ilə bağlı cari il avqustun 23-də BMT-nin Baş katibi Antonio Quterreşə ünvanladığı məktubu qurumun Baş Assambleyası və Təhlükəsizlik Şurasının sənədi kimi yayılıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, məktubda Azərbaycanın Laçın rayonu ərazisində 2021-ci ildə Ermənistan Respublikasında istehsal olunmuş külli miqdarda piyada əleyhinə minaların aşkar edilməsi faktı diqqətə çatdırılır. Bu faktın Ermənistan tərəfindən 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın bir daha kobud şəkildə pozulduğunu göstərdiyi vurğulanır. Ermənistanın sözügedən üçtərəfli Bəyanatın 4-cü bəndinə zidd olaraq Azərbaycan ərazilərindən qanunsuz hərbi birləşmələrini çıxarmadığı və hərbi fəaliyyətlərini dayandırmadığı məktubda qeyd olunub.

Məktubda həmçinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə əhalinin təhlükəsiz yaşayışı naminə genişmiqyaslı bərpa və yenidənqurma işləri apardığı bir dövrdə Ermənistanın qanunsuz hərbi fəaliyyətinin, məcburi köçkünlərin öz yurd-yuvalarına qayıtması prosesinə, o cümlədən regionda sülh və təhlükəsizliyə ciddi zərbə vurduğu ifadə olunub.

Üçtərəfli Bəyanatın imzalanmasından keçən müddətdə 232 nəfərin mina partlayışının qurbanı olduğu barədə faktlar məktubda təqdim edilir.

BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi ilə aşağıdakı keçiddən tanış olmaq mümkündür: undocs.org/A/76/930.

# Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanın Tacikistan Respublikasındakı səfirliyində olub






Milli Məclisin Sədri Sahibə Qafarova Tacikistan Respublikasına rəsmi səfəri çərçivəsində Azərbaycanın bu ölkədəki səfirliyində olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Sahibə Qafarova və parlament nümayəndə heyətinin üzvləri əvvəlcə səfirlikdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin büstünün önünə gül dəstələri düzüblər.

Sonra Sahibə Qafarova səfirliyin əməkdaşları ilə səfirliyin fəaliyyəti barədə söhbət edib, onlar üçün yaradılmış şəraitlə yaxından tanış olub.

Sonda xatirə şəkli çəkdirilib.

*"Azərbaycan"*

# Azərbaycan QHT-ləri Ermənistandakı mədəni irsimizin araşdırılması məqsədilə UNESCO-ya müraciət ünvanlayıblar

Sentyabrın 13-də Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyində Azərbaycan Respublikasında fəaliyyət göstərən elm, təhsil və mədəniyyətyönümlü QHT-lərin UNESCO-ya müraciəti ilə bağlı tədbiri keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən agentliyin Müşahidə Şurasının üzvü İlqar Orucov bildirib ki, Ermənistan silahlı qüvvələrinin 30 ilə yaxın işğal altında saxladığı Qarabağ bölgəsi şanlı Azərbaycan Ordusu tərəfindən işğalçılardan təmizləndikcə xalqımıza məxsus tarix və mədəniyyət abidələrinin vandalizmə məruz qaldığı, yerləyeksan edildiyi, bir qisminə isə toxunulmadığı, saxtalaşdırılaraq erməniləşdirildiyi ortaya çıxır. Ermənistanın uzun illərdir apardığı məqsədyönlü siyasət nəticəsində xalqımızın Ermənistan ərazisində yüz illərlə tarixə malik mədəni irsi tamamilə yox olmaq təhlükəsi ilə üzləşib, bir çox mədəni irs nümunələri məhv edilib. İndiki Ermənistan ərazisində əsrlər boyu yaşayan azərbaycanlıların XX əsr ərzində deportasiyası nəticəsində hazırda bu ölkədə bir nəfər də azərbaycanlı belə qalmayıb. Ermənistan tərəfindən həyata keçirilmiş mədəni soyqırımı azərbaycanlıların etnik təmizlənməsi ilə müşayiət olunub.

Tədbirdə çıxış edən qeyri-hökumət təşkilatlarının nümayəndələri bildiriblər ki, erməni vandalları xalqımıza məxsus tarixi-etnik torpaqlardakı izləri silməklə kifayətlənməyib, eyni zamanda qədim türk mənşəli Azərbaycan toponimlərinə qarşı da barbarcasına davranıblar.

Tədbirin yekunu olaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən elm, təhsil və mədəniyyətyönümlü qeyri-hökumət təşkilatlarının UNESCO-ya müraciəti qəbul edilib.

Müraciətdə bildirilib ki, Azərbaycan xalqının Ermənistan ərazisindəki irsinə qarşı bu ölkə tərəfindən mədəni soyqırımı həyata keçirilib.

İndiki Ermənistanın ərazisində yerləşən tarixi Azərbaycan torpaqlarında yaşayan azərbaycanlılara qarşı 200 ildən çox müddətdə davam edən deportasiya siyasəti nəticəsində hazırda bu ölkədə bir nəfər də azərbaycanlı qalmayıb. Təkcə 1988-ci ildə həyata keçirilmiş sonuncu deportasiya nəticəsində 250 mindən çox azərbaycanlı doğma yurdundan qovularaq qaçqına çevrilib.

Beləliklə, Ermənistan məqsədyönlü şəkildə həm etnik, həm də mədəni soyqırımı siyasəti aparmaqla bu ərazilərin tarixi və əzəli sakinləri olan azərbaycanlıların izlərini hər yerdən silir. Azərbaycan xalqının mədəni irsini talayır, dağıdır, özününküləşdirir və mənşəyini dəyişdirir.

Qeyd olunub ki, bütün bunlar Ermənistanın heç bir ümumbəşəri dəyər tanımadığını göstərir. Bütün bu qanunsuz əməllərin, onillərlə davam edən vandallığın cəzasız qalması isə dünya ictimaiyyətinə yanlış mesaj vermiş olur. Dünya ictimaiyyəti belə addımların Ermənistanda dövlət siyasəti olmasını anlamalı və buna qarşı addımlar atmalıdır.

Bu məqsədlə beynəlxalq hüquqda mövcud cəza mexanizmləri tətbiq edilməlidir.

Ermənistanın Azərbaycan xalqına və tarixi-mədəni abidələrinə qarşı bu münasibətinə baxmayaraq, dövlətimiz və eləcə də xalqımız ölkə ərazisində olan erməni abidələrinə qarşı daim diqqət göstərir və həmin abidələr dövlət tərəfindən qorunur. Nümunə olaraq Bakı şəhərinin mərkəzində yerləşən Müqəddəs Qriqori kilsəsini göstərə bilərik.

QHT nümayəndələri UNESCO rəhbərindən Azərbaycan xalqının Ermənistan ərazisində yerləşən çoxəsrlik mədəni və tarixi irsinin mövcud vəziyyətinin qiymətləndirilməsi üçün təşkilat tərəfindən Ermənistana faktaraşdırıcı ekspert qrupunun göndərilməsini xahiş ediblər.

# Azərbaycan öz ərazisində beynəlxalq hüququ bərpa edir

## Azərbaycanın xarici işlər naziri ABŞ dövlət katibinin köməkçisi ilə Ermənistanın təxribatı nəticəsində baş verən gərginliyi müzakirə edib

Sentyabrın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Amerika Birləşmiş Ştatlarının dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid arasında telefon danışığı olub.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı Ermənistanın genişmiqyaslı təxribatı nəticəsində davam edən toqquşmalar və gərginlik müzakirə edilib.

Nazir Ceyhun Bayramov Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədboyu ərazilərində genişmiqyaslı təxribatları, habelə ölkəmizin ərazisinə və suverenliyinə qarşı hərbi təhlükələrin qarşısının alınması, hərbi qulluqçularımızın, o cümlədən infrastruktur işlərinə cəlb olunmuş mülki işçilərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə görülən tədbirlər barədə qarşı tərəfə məlumat verib. Nazir Ermənistanın son bir ay ərzində davamlı olaraq mövqelərimizi və mülki əhalini atəşə tutmasının, Azərbaycan sərhədləri boyunca hərbiləşməni artırmasının, ərazilərin minalanması işini davam etdirməsinin Ermənistanın genişmiqyaslı hərbi təxribata hazırlaşdığının göstəricisi olduğunu vurğulayıb.

Ermənistan tərəfinin Azərbaycana qarşı təcavüzü ilə beynəlxalq hüququn fundamental norma və prinsiplərini, habelə Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında imzalanmış üçtərəfli bəyanatların müddəalarını və Azərbaycanla Ermənistan arasında əldə edilmiş razılıqları kobud şəkildə pozduğu, bununla da aparılan normallaşma və sülh prosesinə tamamilə zidd olduğu diqqətə çatdırılıb. Azərbaycan tərəfindən işğaldan azad edilmiş bu ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri aparılan bir zamanda hərbi gərginliyin artmasında maraqlı olmadığı ABŞ tərəfinə bildirilib.

Karen Donfrid bölgədə artan gərginlik və hərbi toqquşmalardan narahatlığını diqqətə çatdırıb, hərbi əməliyyatların dərhal dayandırılmasına çağırış edib.

## Türkiyənin xarici işlər naziri Ermənistanın son irimiqyaslı hərbi təxribatları barədə məlumatlandırılıb

Sentyabrın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovla Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı nazir Ceyhun Bayramov sentyabrın 12-də gecə saatlarından başlayaraq Azərbaycan-Ermənistan sərhədində Ermənistanın genişmiqyaslı təxribatları barədə Türkiyə tərəfinə ətraflı məlumat verib. Ermənistanın son bir ay ərzində Azərbaycan mövqelərini atəşə tutması, Azərbaycan ərazilərinin minalanmasının davam etməsi, bölgədə hərbiləşmə prosesini genişləndirdiyi diqqətə çatdırılıb.

Ermənistan silahlı qüvvələrinin təxribatının və ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə qarşı hərbi təhlükələrin qarşısının alınması, hərbi qulluqçularımızın və infrastruktur işlərinə cəlb olunmuş mülki işçilərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan Ordusunun bölmələri tərəfindən qəti cavab tədbirləri görüldüyü bildirilib.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu hərbi gərginliyin və təxribatların narahatlıq doğurduğunu, Ermənistanın əldə edilmiş razılıqlar çərçivəsində öhdəliklərinin tam yerinə yetirilməsinin vacibliyini vurğulayıb.

Telefon danışığı zamanı digər regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycan və Türkiyə müdafiə nazirləri arasında telefon danışığı olub

Sentyabrın 13-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akar arasında telefon danışığı olub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, general-polkovnik Z.Həsənov Ermənistan tərəfinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribatı nəticəsində baş verən döyüş toqquşması barədə həmkarını məlumatlandırıb və qarşı tərəfin bu addımlarının qarşısının qətiyyətlə alındığını bildirib.

H.Akar öz növbəsində Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribat nəticəsində hərbi qulluqçularımızın şəhid olması ilə bağlı başsağlığı verib, yaralılara şəfa diləyib.

H.Akar Türkiyənin həmişə olduğu kimi, bu gün də Azərbaycanın yanında olduğunu xüsusi qeyd edib.

Telefon danışıqları zamanı hər iki qardaş ölkənin müdafiə nazirləri yaranmış vəziyyətlə bağlı geniş fikir mübadiləsi aparıblar.

## Xarici İşlər Nazirliyi Ermənistan silahlı qüvvələri bölmələrinin törətdiyi genişmiqyaslı təxribatla əlaqədar bəyanat yayıb

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Ermənistan silahlı qüvvələrinin bölmələrinin ötən gecə törətdiyi genişmiqyaslı təxribatla əlaqədar bəyanat yayıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, bəyanatda sentyabrın 12-də gecə saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törətdiyi qeyd olunub. Bildirilib ki, Azərbaycan Respublikasının Müdafiə Nazirliyindən verilən məlumata əsasən, Ermənistan silahlı qüvvələrinin diversiya qrupları sutkanın qaranlıq vaxtında ərazinin dağlıq relyefi və mövcud dərə boşluqlarını istifadə edərək müxtəlif istiqamətlərdə Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı ərazilərin və təminat yollarının minalanmasını həyata keçirib. Ermənistan silahlı qüvvələri bununla yanaşı, Azərbaycan Ordusunun Daşkəsən, Kəlbəcər və Laçın rayonları ərazisindəki mövqelərini müxtəlif çaplı silahlar, o cümlədən minaatanlardan intensiv atəşə tutub. Nəticədə silahlı qüvvələrimizin şəxsi heyəti arasında itkilər var, hərbi infrastruktura ziyan dəyib.

Ermənistan silahlı qüvvələrinin təxribatının və ölkəmizin ərazisinə və suverenliyinə qarşı hərbi təhlükələrin qarşısının alınması, hərbi qulluqçularımızın, o cümlədən Kəlbəcər və Laçın rayonları ərazisində infrastruktur işlərinə cəlb olunmuş mülki işçilərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə döyüş toqquşmasının miqyasının genişlənməsinin qarşısı alınıb və Ermənistan silahlı qüvvələrinin atəş nöqtələrinin susdurulması istiqamətində Azərbaycan Ordusunun bu istiqamətdə dislokasiya olunan bölmələri tərəfindən qəti cavab tədbirləri görülüb. Habelə Ermənistan tərəfindən guya Azərbaycan Ordusunun mülki əhalini, obyektləri və infrastrukturu hədəfə alması barədə yayılan məlumatları həqiqəti əks etdirmir və Ermənistan tərəfinin yaydığı növbəti dezinformasiyadır.

Ümumiyyətlə, son bir ay ərzində Ermənistan silahlı qüvvələrinin dövlət sərhədinin Laçın, Gədəbəy, Daşkəsən və Kəlbəcər rayonları istiqamətində təxribatları, Azərbaycan Ordusunun həmin rayonların ərazisindəki mövqelərinin müxtəlif çaplı silahlardan atəşə tutulması halları intensiv və sistematik xarakter daşıyırdı. Eyni zamanda Ermənistan tərəfindən Azərbaycan sərhədləri boyunca hərbiləşməni artırması, bölgədə ağır texnika və iriçaplı silahlar yerləşdirməsi Ermənistanın genişmiqyaslı hərbi təxribata hazırlaşdığını göstərirdi.

Bununla yanaşı, Ermənistanın normallaşma prosesini müxtəlif bəhanələrlə ləngitməsi, beynəlxalq səylərlə aparılan danışıqlarda destruktiv mövqe nümayiş etdirməsi, üçtərəfli bəyanatlar və əldə edilmiş razılıqlar çərçivəsində öhdəliklərə zidd olaraq, erməni silahlı birləşmələrini Azərbaycan ərazisindən çıxarmaması, Ermənistanda istehsal olunan minaların son zamanlarda Laçın ərazisində yerləşdirilməsi də daxil olmaqla ərazilərin minalanmasının davam etdirilməsi, kommunikasiyaların və nəqliyyat marşrutlarının açılması işlərində Ermənistan tərəfindən yeni şərtlərin irəli sürülməsi və prosesi dağıtması, eləcə də sülh gündəliyinə qarşılıq verməməsi Ermənistanın sülh prosesində maraqlı olmadığını və prosesə zərbə vurulması məqsədlərini nümayiş etdirirdi.

Bildirilib ki, Ermənistan tərəfinin Azərbaycana qarşı növbəti təcavüzü beynəlxalq hüququn fundamental norma və prinsiplərinin, habelə Azərbaycan, Ermənistan və Rusiya Federasiyası liderləri arasında imzalanmış üçtərəfli bəyanatların müddəalarının və Azərbaycanla Ermənistan arasında əldə edilmiş razılıqların kobud şəkildə pozulmasıdır, Ermənistanın bu addımları aparılan normallaşma və sülh prosesinə tamamilə ziddir. Azərbaycan dövləti işğaldan azad edilmiş bu ərazilərində genişmiqyaslı bərpa və quruculuq işləri aparan bir zaman Ermənistan təcavüzə yol verməklə bu prosesə hər vəchlə mane olduğunu növbəti dəfə göstərdi.

"Baş vermiş təxribat, qarşıdurma və itkilərə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə qarşı hər bir addımın qarşısı qətiyyətlə alınacaq", - deyə Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında qeyd olunub.

## Ombudsmanın Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatı ilə əlaqədar bəyanatı

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsman) Ermənistan silahlı qüvvələrinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribatı ilə əlaqədar bəyanat yayıb.

AZƏRTAC bəyanatı təqdim edir: "Təəssüflə bildiririk ki, Ermənistan silahlı qüvvələrinin bölmələri sentyabrın 12-də gecə saatlarında beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normalarını, fundamental insan hüquqlarını, Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın şərtlərini növbəti dəfə qəsdən və kobud şəkildə pozaraq Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törədib.

Baş vermiş hərbi təxribat hərbi qulluqçular arasında itkilərin olmasına, hərbi və mülki infrastruktura ziyan dəyməsinə, xidməti vəzifələrini yerinə yetirən mülki insanların və hərbi qulluqçuların yaşamaq, təhlükəsiz yaşamaq, sağlamlıq hüquqlarının pozulmasına səbəb olub.

Ermənistan silahlı qüvvələrinin diversiya qrupları tərəfindən törədilən növbəti genişmiqyaslı hərbi təxribatı, xüsusilə də qaranlıq hava şəraitində ərazinin dağlıq relyefi və mövcud dərə boşluqlarını istifadə edərək müxtəlif istiqamətlərdə Azərbaycan ərazilərinin, xüsusilə geniş bərpa-quruculuq işlərinin aparıldığı yerlərin, təminat yollarının minalanmasını kəskin şəkildə pisləyirik.

Ümumiyyətlə, 1991-2022-ci illər ərzində 3190 nəfər Azərbaycan vətəndaşı, o cümlədən 355 uşaq, 38 qadın mina qurbanı olmuşdur. 2020-ci ilin noyabr ayından 2022-ci ilin sentyabr ayınadək 242 nəfər mina qurbanı olmuş, onlardan 40 nəfər həlak olmuş, 202 nəfər ağır bədən xəsarətləri almışdır.

Son zamanlar ölkəmizin işğaldan azad olunmuş ərazilərində aparılan minatəmizləmə fəaliyyəti nəticəsində aşkar edilmiş minaların 2021-ci il tarixində Ermənistanda istehsal olunduğunu təsdiq edən faktların üzə çıxması, Ermənistanın kommunikasiyaların və nəqliyyat marşrutlarının açılmasında maraqlı olmaması, eləcə də sülh danışıqlarına dəstək verməməsi bu ölkənin sülh prosesində maraqlı olmadığını göstərir.

Beynəlxalq humanitar hüquq normalarına zidd olaraq, Azərbaycana qarşı etnik nifrət və düşmənçilik niyyəti ilə qəsdən və məqsədli şəkildə, insanların həyat və sağlamlığına ciddi ziyan vurmaq üçün törədilən bu kimi hərbi təxribatları fundamental hüquq və azadlıqların kobud pozulması faktı kimi qiymətləndiririk.

Ermənistan bu addımı ilə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən geniş bərpa-quruculuq işlərini ləngitməyə, beləliklə də, keçmiş məcburi köçkünlərin öz tarixi yurdlarına qayıdışı prosesini yubatmağa çalışır.

Beynəlxalq təşkilatlara və dünya ictimaiyyətinə müraciət edərək, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini minalarla çirkləndirməyə, azad edilmiş ərazilərimizdə aparılan geniş bərpa-quruculuq işlərini və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına geri qayıtmalarının qarşısını almağa çalışan, regionda ədalətli və dayanıqlı sülhün bərqərar olması üçün ciddi maneə yaradan, fundamental insan hüquq və azadlıqlarını kobud şəkildə pozan Ermənistanın təxribat əməllərinə dərhal və sərt reaksiya verməyə çağırırıq".

Bəyanat BMT Baş katibinə, BMT-nin Təhlükəsizlik Şurasına, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına, BMT-nin Qaçqınlar üzrə Ali Komissarına, BMT-nin İnsan Hüquqları Şurasına, UNICEF-in, UNESCO-nun, Avropa İttifaqının, Avropa Şurasının, ATƏT-in rəhbərlərinə, Beynəlxalq və Avropa Ombudsmanlar İnstitutlarına, Asiya Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatına və bu quruma üzv dövlətlərin Ombudsmanlar Assosiasiyasına, İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasına, Avropa Uşaq Hüquqları Ombudsmanları Şəbəkəsinə, Beynəlxalq Sülh Bürosuna, müxtəlif ölkələrin ombudsmanlarına və milli insan hüquqları institutlarına, Azərbaycan Respublikasının xarici ölkələrdəki və xarici ölkələrin respublikamızdakı səfirliklərinə, Azərbaycanın diaspor təşkilatlarına göndərilib.

## Azərbaycan diaspor təşkilatları Ermənistanın təxribatları ilə əlaqədar beynəlxalq ictimaiyyətə bəyanat ünvanlayıblar

Dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları sentyabrın 12-də Ermənistanın Azərbaycanla dövlət sərhədində törətdiyi təxribatla əlaqədar beynəlxalq ictimaiyyətə bəyanat ünvanlayıblar.

Bu barədə AZƏRTAC-a Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.

Bəyanatda deyilir: "Biz - dünyanın müxtəlif ölkələrində yaşayan və fəaliyyət göstərən Azərbaycan icmasının üzvləri Azərbaycanla Ermənistan arasında aparılan sülh danışıqlarına rəsmi İrəvan tərəfindən növbəti zərbə vurulmasından dərin narahatlıq hissi keçirdiyimizi bəyan edir və beynəlxalq birlikdən Ermənistanın təcavüzkarlıq siyasətinin qarşısının alınması üçün işğalçı dövlətə qarşı təzyiqlərin gücləndirilməsini xahiş edirik.

Bildiririk ki, sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələrinin diversiya qrupları müxtəlif istiqamətlərdə Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı ərazilərin və təminat yollarının minalanmasını həyata keçirib, Azərbaycan Ordusunun Daşkəsən, Kəlbəcər və Laçın rayonları ərazisindəki mövqeləri müxtəlif çaplı silahlar, o cümlədən minaatanlardan intensiv atəşə tutub. Nəticədə Azərbaycan silahlı qüvvələrinin şəxsi heyəti arasında itkilər var, hərbi infrastruktura ziyan dəyib.

Təəssüflə vurğulayırıq ki, Azərbaycanın təşəbbüsü ilə başlanan iki ölkə arasında sülhyaratma prosesinə Ermənistanın təxribatla cavab verməsi ilk dəfə deyil. Ermənistanın nizamlama prosesini müxtəlif bəhanələrlə ləngitməsi, Azərbaycanın irəli sürdüyü 5 təklifdən ibarət sülh təkliflərini qəbul etdiyini elan etməsinə baxmayaraq, beynəlxalq səylərlə aparılan danışıqlarda destruktiv mövqe nümayiş etdirməsi, sülh gündəliyinə qarşılıq verməməsi, üçtərəfli bəyanatlara və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Brüsseldə əldə edilmiş razılıqlara zidd olaraq erməni silahlı birləşmələrini Azərbaycan ərazisindən çıxarmaması Ermənistanın sülh prosesində maraqlı olmadığını və prosesə zərbə vurulması məqsədlərini nümayiş etdirir. Ermənistanda istehsal olunan minaların son zamanlarda Laçın ərazisində yerləşdirilməsi də daxil olmaqla ərazilərin minalanmasının davam etdirilməsi, kommunikasiyaların və nəqliyyat marşrutlarının açılması işlərində Ermənistan tərəfindən yeni şərtlərin irəli sürülməsi yuxarıda qeyd edilənləri bir daha sübut edir. Xatırladırıq ki, müharibənin başa çatdığı dövrdən indiyədək Ermənistan tərəfindən müxtəlif növ minalar və digər partlayıcı qurğuların yerləşdirilməsi səbəbindən yüzlərlə insan minaya düşərək yaralanmış və ya həlak olmuşdur.

Əminliklə bildiririk ki, Ermənistan silahlı qüvvələrinin təxribatına cavab olaraq Azərbaycanın gördüyü əks-tədbirlər lokal xarakterli olub, hərbi hədəflərə qarşı yönəlib. Belə ki, cavab tədbirləri hədəflənmiş xarakterli olmaqla Azərbaycanın sərhədlərinin toxunulmazlığını, işğaldan azad olunmuş Kəlbəcər və Laçın rayonlarında bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilərin təhlükəsizliyini təmin etmək və Ermənistanın təxribatlarına son qoymaq məqsədi daşıyır. Eyni zamanda Ermənistan tərəfindən guya Azərbaycan Ordusunun mülki əhalini, obyektləri və infrastrukturu hədəfə alması barədə yayılan məlumatların həqiqəti əks etdirmədiyini vurğulayır və bunun Ermənistan tərəfinin yaydığı növbəti dezinformasiya olduğuna əminliyimizi ifadə edirik.

Baş vermiş təxribat, qarşıdurma və itkilərə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Qətiyyətlə söyləyirik ki, Ermənistanın bu addımları aparılan normallaşma və sülh prosesinə tamamilə ziddir. Doğma Vətənimizin işğaldan azad edilmiş bu ərazilərində genişmiqyaslı bərpa və quruculuq işlərinin aparıldığı zaman Ermənistanın təcavüzə yol verməsi bu prosesə hər vəchlə mane olduğunun növbəti bariz göstəricisidir.

Biz bir daha beynəlxalq təşkilatlara, aparıcı qurumlara müraciət edərək dünya birliyindən bu kimi halların bir daha baş verməməsi üçün beynəlxalq hüquq müstəvisində əməli addımların atılmasını, eyni zamanda Ermənistan tərəfinin revanşizm ideyalarına son qoyaraq sülhə dəvət edilməsi istiqamətində səylərin artırılmasını tələb edirik".

## Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının dünya veteranlarına və beynəlxalq təşkilatlara müraciəti

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı 2022-ci il sentyabrın 12-də Ermənistanın Azərbaycanla dövlət sərhədində həyata keçirdiyi irimiqyaslı təxribatla bağlı bəyanat yayıb.

Respublika Veteranları Təşkilatından AZƏRTAC-a bildiriblər ki, dünya veteranları və beynəlxalq təşkilatlara ünvanlanan bəyanatda deyilir: "2022-ci il sentyabrın 12-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanla dövlət sərhədində həyata keçirdiyi irimiqyaslı təxribat nəticəsində 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında imzalanan birgə bəyanatın şərtləri növbəti dəfə pozulub, məlum insident Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçuları arasında itkilərə səbəb olub. Post-müharibə dönəmindən sonra da dövlətimizə qarşı mina terrorunu davam etdirən, respublikamızın ərazi bütövlüyü və suverenliyinə qarşı davamlı diversiyalar həyata keçirən Ermənistanın sentyabrın 12-də təxribatı beynəlxalq hüquq normalarını kobud şəkildə pozmaqla yanaşı, regionda sülh və sabitlik baxımından da ciddi təhdidlərin yaranmasına səbəb olub. Bu təxribat Azərbaycanla Ermənistan arasında imzalanması nəzərdə tutulan sülh müqaviləsinin taleyini də qeyri-müəyyən vaxta qədər təxirə salıb, hər iki dövləti narahat edən problemlərin siyasi müstəvidə tənzimlənməsi prosesinə zərbə vurub.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı olaraq hesab edirik ki, Ermənistanın Azərbaycana yönəlik terror və təxribat xarakterli addımlarına beynəlxalq ictimaiyyət, o cümlədən dünya veteranları, beynəlxalq təşkilatlar, qabaqcıl dövlətlər biganə qalmamalı, rəsmi İrəvanın beynəlxalq hüquqazidd olan militarist siyasətinə qarşı öz etirazlarını bildirməlidirlər. Çünki Ermənistanın Azərbaycan xalqını hədəf alan təxribatçılıq siyasəti sadəcə ölkəmiz üçün deyil, bütün sivil dünya və bəşəriyyət üçün ciddi təhdid təşkil etməkdədir. Dünya veteranları, beynəlxalq təşkilatlar 12 sentyabr təxribatı ilə bağlı Ermənistana öz etirazlarını bildirməli, yaxın gələcəkdə oxşar təxribatların baş verməməsi üçün rəsmi İrəvana ciddi təzyiq göstərməli, hadisə və proseslərin inkişafını diqqət mərkəzində saxlamalıdır.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı olaraq sentyabrın 12-də törədilmiş təxribatı qınayır, bunu Ermənistan hakimiyyətinin antisülh, antihumanist siyasətinin növbəti təzahürü kimi qiymətləndiririk. Ümid edirik ki, dünya veteranları və beynəlxalq təşkilatlar terror və təxribatı dövlət siyasəti səviyyəsinə qaldıran Ermənistanın təxribatlarını cavabsız qoymayacaq, beynəlxalq hüququ və ədalət prinsipini rəhbər tutaraq rəsmi İrəvana öz sərt etirazlarını bildirəcək, Azərbaycanın sülh siyasətinə aşkar dəstək ifadə edəcəklər".

# Azərbaycan öz ərazisində beynəlxalq hüququ bərpa edir

## Müdafiə Nazirliyinin məlumatı

Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatları ilə əlaqədar sentyabrın 13-də Müdafiə Nazirliyində brifinq keçirilib.

AZƏRTAC xəbər verir ki, brifinqdə Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəis müavini polkovnik-leytenant Anar Eyvazov media nümayəndələrinə vəziyyət barədə məlumat verib.

Bildirilib ki, sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törədib. Ermənistan silahlı qüvvələrinin diversiya qrupları sutkanın qaranlıq vaxtında Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı ərazilərinin və təminat yollarının minalanmasını həyata keçirib. Bu əməllərin qarşısının dərhal alınması məqsədilə bölmələrimiz tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində döyüş toqquşması baş verib.

Qarşı tərəfin Basarkeçər, İstisu, Qarakilsə və Gorus yaşayış məntəqələri istiqamətində yerləşən bölmələri tərəfindən Azərbaycan Ordusunun Daşkəsən, Kəlbəcər və Laçın rayonları ərazisindəki bəzi mövqeləri, sığınacaqlar və dayaq məntəqələri müxtəlif çaplı silahlar, o cümlədən minaatanlardan intensiv atəşə tutulub. Nəticədə şəxsi heyət arasında itkilər var, hərbi infrastruktura ziyan dəyib.

Ermənistan silahlı qüvvələrinin təxribatının, ölkəmizin ərazisinə və suverenliyinə qarşı hərbi təhlükələrin qarşısının alınması, hərbi qulluqçularımızın, o cümlədən Kəlbəcər və Laçın rayonları ərazisində infrastruktur işlərinə cəlb olunmuş mülki işçilərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə hazırda Azərbaycan Ordusunun bu istiqamətdə dislokasiya olunan bölmələri tərəfindən qəti cavab tədbirləri görülür. Ermənistan silahlı qüvvələrinin atəş nöqtələrinin susdurulmaqla döyüş toqquşmasının miqyasının genişlənməsinin qarşısının alınması məqsədilə zəruri tədbirlər görülür. Təxribat əməliyyatlarına cəlb olunmuş Ermənistan silahlı qüvvələrinin canlı qüvvəsi və döyüş texnikası sırasında itkilər var.

Qeyd olunub ki, ümumiyyətlə, son bir ay ərzində Ermənistan silahlı qüvvələrinin dövlət sərhədinin Laçın, Gədəbəy, Daşkəsən və Kəlbəcər rayonları istiqamətində təxribatları, Azərbaycan Ordusunun həmin rayonların ərazisindəki mövqelərinin müxtəlif çaplı silahlardan atəşə tutulması halları intensiv və sistematik xarakter daşıyırdı. Eyni zamanda Ermənistan tərəfindən Azərbaycan sərhədləri boyunca hücum təyinatlı silahları, ağır artilleriya vasitələrini və şəxsi heyəti cəmləşdirməsi müşahidə olunmaqda idi. Bütün bu faktlar Ermənistanın genişmiqyaslı hərbi təxribata hazırlaşdığına dəlalət edirdi.

"Ermənistan bu kimi əməlləri ilə həmçinin Azərbaycanın işğaldan azad edilmiş sərhədyanı rayonlarda həyata keçirdiyi irimiqyaslı mülki infrastruktur layihələrinin icrasını ləngitmək və Azərbaycan sərhədləri yaxınlığında gərginlik mühitini saxlamaq məqsədini güdür. Ermənistan kütləvi informasiya vasitələrində və sosial media seqmentində Azərbaycanın Ermənistanın ərazisinə müdaxilə etməsi barədə yayılan xəbərlər cəfəngiyyatdan başqa bir şey deyil. Regionda təcavüzkar və işğalçı dövlət Ermənistan Respublikasıdır. Ermənistan silahlı qüvvələrinin şəxsi heyəti və texnikasının Azərbaycan Qarabağ iqtisadi zonasında mövcudluğu hələ də davam edir. Azərbaycan Ordusu Ermənistanın genişmiqyaslı təxribatına cavab olaraq lokal əks tədbirlər həyata keçirir və atəş nöqtələri neytrallaşdırılır", - deyə A.Eyvazov diqqətə çatdırıb.

Müdafiə Nazirliyinin rəsmisi bildirib ki, Ermənistanın davam edən hərbi avantüra və revanşizm siyasəti, son bir ay ərzində Kəlbəcər, Laçın, Daşkəsən və Gədəbəy istiqamətlərində Azərbaycan Ordusunun mövqelərini intensiv atəşə tutması və bu gün törətdiyi genişmiqyaslı təxribatları vəziyyətin gərginləşməsinin başlıca səbəbidir. Buna görə də məsuliyyəti məhz Ermənistanın hərbi-siyasi rəhbərliyi daşıyır.

Ermənistan tərəfindən guya Azərbaycan Ordusunun mülki əhalini, obyektləri və infrastrukturu hədəfə alması barədə yayılan məlumatlar həqiqəti əks etdirmir. Bunların hamısı Ermənistan tərəfinin yaydığı növbəti dezinformasiyadır. Ermənistanın təxribatlarına cavab olaraq əks tədbirlər lokal xarakter daşıyır və



atəş nöqtəsi olan legitim hərbi hədəflərə qarşı yönəlib. Cavab tədbirləri kiçikmiqyaslı və hədəflənmiş xarakter daşıyaraq Azərbaycan sərhədlərinin təhlükəsizliyini təmin etmək və Ermənistanın təxribatlarına son qoymaq məqsədi daşıyır.

A.Eyvazov xatırladıb ki, mülki obyektlərin və günahsız insanların hədəfə alınması Ermənistan silahlı qüvvələrinin tətbiq etdiyi standart hərbi metodologiyadır. Otuz illik işğal dövründə və 44 günlük Vətən müharibəsində məhz Ermənistan tərəfi ballistik raketlər və kasetli bombalarla qəsdən və məqsədyönlü şəkildə Azərbaycan şəhərlərini və mülki əhalisini hədəfə alırdı. Bir daha bəyan edirik ki, baş vermiş təxribat, qarşıdurma və itkilərə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

* * *

"Ermənistan kütləvi informasiya vasitələrində və sosial media seqmentində Azərbaycanın Ermənistanın ərazisinə müdaxilə etməsi barədə yayılan xəbərlər cəfəngiyyatdan başqa bir şey deyil".

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mətbuat xidmətinin məlumatında bildirilib.

Məlumatda qeyd olunub ki, regionda təcavüzkar və işğalçı dövlət Ermənistan Respublikasıdır. Ermənistan silahlı qüvvələrinin şəxsi heyəti və texnikasının Azərbaycan Qarabağ iqtisadi zonasında mövcudluğu hələ də davam edir.

Azərbaycan Ordusu Ermənistanın təxribatına cavab olaraq lokal əks tədbirlər həyata keçirir və atəş nöqtələri neytrallaşdırılır.

Ermənistanın davam edən hərbi avantüra və revanşizm siyasəti, son bir ay ərzində Kəlbəcər, Laçın, Daşkəsən və Gədəbəy istiqamətlərində Azərbaycan Ordusunun mövqelərini intensiv atəşə tutması və bu gün törətdiyi genişmiqyaslı təxribatları vəziyyətin gərginləşməsinin əsas səbəbidir. Buna görə də məsuliyyəti məhz Ermənistanın hərbi-siyasi rəhbərliyi daşıyır.

* * *

Ermənistan tərəfinin Basarkeçər rayonu istiqamətində Azərbaycana məxsus hərbi təyyarənin guya məhv edilməsi ilə bağlı yaydığı məlumat yalandır və dezinformasiya xarakteri daşıyır.

Bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

* * *

Müdafiə Nazirliyi KİV və sosial şəbəkə istifadəçilərinə müraciət edib.

AZƏRTAC xəbər verir ki, müraciətdə deyilir: "Yalnız Müdafiə Nazirliyinin yaydığı rəsmi məlumatlardan istifadə edilsin, qarşı tərəfin dezinformasiya xarakterli yalan məlumatları paylaşılmasın!

Bildiririk ki, Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatı nəticəsində baş verən döyüş toqquşması barədə mütəmadi olaraq rəsmi məlumatlar veriləcək".

* * *

"Bəzi erməni kütləvi informasiya vasitələrində Azərbaycan Ordusunun bölmələri tərəfindən açılan atəş nəticəsində Qafan rayonu ərazisində guya təcili tibbi yardım maşınının vurulması ilə bağlı yayılan məlumat tamamilə yalandır və qarşı tərəfin təxribat xarakterli növbəti dezinformasiyasıdır".

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

"Bir daha bildiririk ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən əks tədbirlər yalnız Ermənistan silahlı qüvvələrinin atəş nöqtəsi olan legitim hərbi hədəflərinə qarşı yönəlib", - deyə məlumatda qeyd edilib.

* * *

Ermənistan kütləvi informasiya vasitələri və sosial media seqmentində Azərbaycanın Ermənistan ərazisinə müdaxilə etməsi barədə yayılan xəbərlər cəfəngiyyatdan başqa bir şey deyildir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, regionda yeganə təcavüzkar və işğalçı dövlət Ermənistan Respublikasıdır. Ermənistan silahlı qüvvələrinin şəxsi heyəti və texnikasının Azərbaycan Qarabağ iqtisadi zonasında mövcudluğu hələ də davam edir.

Azərbaycan Ordusu Ermənistanın genişmiqyaslı təxribatına cavab olaraq lokal əks tədbirlər həyata keçirir və atəş nöqtələri neytrallaşdırılır.

Ermənistanın davam edən hərbi avantüra və revanşizm siyasəti, son bir ay ərzində Kəlbəcər, Laçın, Daşkəsən və Gədəbəy istiqamətlərində Azərbaycan Ordusunun mövqelərini intensiv atəşə tutması və bu gün törətdiyi genişmiqyaslı təxribatları vəziyyətin gərginləşməsinin əsas səbəbidir. Buna görə də məsuliyyəti məhz Ermənistanın hərbi-siyasi rəhbərliyi daşıyır.

* * *

Sentyabrın 12-də gecə saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törədib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan silahlı qüvvələrinin diversiya qrupları sutkanın qaranlıq vaxtında ərazinin dağlıq relyefi və mövcud dərə boşluqlarını istifadə edərək müxtəlif istiqamətlərdə Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı ərazilərinin və təminat yollarının minalanmasını həyata keçirib.

Bu əməllərin qarşısının dərhal alınması məqsədilə bölmələrimiz tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində döyüş toqquşması baş verib.

Ermənistan silahlı qüvvələrinin Basarkeçər, İstisu, Qarakilsə və Gorus yaşayış məntəqələri istiqamətində yerləşən bölmələri tərəfindən Azərbaycan Ordusunun Daşkəsən, Kəlbəcər və Laçın rayonları ərazisindəki bəzi mövqeləri, sığınacaqlar və dayaq məntəqələri müxtəlif çaplı silahlar, o cümlədən minaatanlardan intensiv atəşə tutulub. Nəticədə şəxsi heyət arasında itkilər var, hərbi infrastruktura ziyan dəyib.

Ermənistan silahlı qüvvələrinin təxribatının, ölkəmizin ərazisinə və suverenliyinə qarşı hərbi təhlükələrin qarşısının alınması, hərbi qulluqçularımızın, o cümlədən Kəlbəcər və Laçın rayonları ərazisində infrastruktur işlərinə cəlb olunmuş mülki işçilərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan Ordusunun bu istiqamətdə dislokasiya olunan bölmələri tərəfindən qəti cavab tədbirləri görülür.

Ermənistan silahlı qüvvələrinin atəş nöqtələrinin susdurulması və döyüş toqquşmasının miqyasının genişlənməsinin qarşısının alınması məqsədilə zəruri tədbirlər görülür.

Təxribat əməliyyatlarına cəlb olunmuş Ermənistan silahlı qüvvələrinin canlı qüvvəsi və döyüş texnikası sırasında itkilər var.

Ümumiyyətlə, son bir ay ərzində Ermənistan silahlı qüvvələrinin dövlət sərhədinin Laçın, Gədəbəy, Daşkəsən və Kəlbəcər rayonları istiqamətində təxribatları, Azərbaycan Ordusunun həmin rayonların ərazisindəki mövqelərinin müxtəlif çaplı silahlardan atəşə tutulması halları intensiv və sistematik xarakter daşıyırdı. Eyni zamanda Ermənistan tərəfindən Azərbaycan sərhədləri boyunca hücum təyinatlı silahları, ağır artilleriya vasitələrini və şəxsi heyəti cəmləşdirməsi müşahidə olunmaqda idi.

Bütün bu faktlar bir daha ona dəlalət edirdi ki, Ermənistan genişmiqyaslı hərbi təxribata hazırlaşır.

Ermənistan bu kimi əməlləri ilə eləcə də Azərbaycanın işğaldan azad edilmiş sərhədyanı rayonlarda həyata keçirdiyi irimiqyaslı mülki infrastruktur layihələrinin icrasını ləngitmək və Azərbaycan sərhədləri yaxınlığında gərginlik mühitini saxlamaq məqsədini güdür.

Bir daha bəyan edirik ki, baş vermiş təxribat, qarşıdurma və itkilərə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Yaranmış vəziyyət barədə ictimaiyyətə əlavə məlumat veriləcək.

## Hərbi attaşelər Ermənistanın genişmiqyaslı təxribatı barədə məlumatlandırılıb

Sentyabrın 13-də Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelər üçün brifinq keçirib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, xarici ölkələrin hərbi nümayəndələrinə Ermənistan silahlı qüvvələrinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində törətdiyi genişmiqyaslı təxribatlar barədə ətraflı məlumat verilib.

Bildirilib ki, Ermənistan tərəfinin son zamanlar qeyd olunan istiqamətlərdə mövqelərimizi mütəmadi olaraq atəşə tutmasında başlıca məqsəd sülh sazişinin imzalanmasının, həmçinin azad edilmiş ərazilərdə aparılan irimiqyaslı bərpa-quruculuq işlərinin yubadılmasıdır.

Beynəlxalq nümayəndələrin diqqətinə çatdırılıb ki, Azərbaycan 2020-ci il 10 noyabr tarixli Üçtərəfli Bəyanata



sadiqdir, sərhədlərin demarkasiya və delimitasiya işinin başlanması və hər iki ölkə arasında sülh müqaviləsinin imzalanması ilə bölgədə əmin-amanlığın bərqərar olunmasına maraqlıdır. Qarşı tərəf isə əksinə, ərazilərimizə, bölmələrimizin təminat yollarına minalar basdırmaqla bəyanata zidd davranışlar sərgiləyir. Bu da Ermənistanın hərbi avantüra və revanşist mövqedə olduğuna əyani sübutdur.

Qeyd olunub ki, təkcə Kəlbəcər və Laçın rayonları ərazilərində 2019-2021-ci illərdə Ermənistanda istehsal olunmuş PMN-G növlü 1390 ədəd piyada əleyhinə mina aşkar edilib.

İşğaldan azad edilmiş ərazilərdə mühəndis-istehkam bölmələrimizin bu günədək Ermənistan silahlı qüvvələri tərəfindən basdırılmış ümumilikdə 7559 ədəd piyada əleyhinə, 2348 ədəd tank əleyhinə mina və 10052 ədəd partlamamış döyüş sursatı aşkarlayaraq məhv etməsinə baxmayaraq, qarşı tərəfin diversiya qrupları sentyabrın 12-də gecə saatlarında bölmələrimizin təminat yollarını və mövqeləri arasındakı əraziləri minalayıb. Ermənistanın məhz bu əməli və genişmiqyaslı təxribatı Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində döyüş toqquşmasına səbəb olub.

Brifinqdə tərəfimizdən görülən cavab tədbirlərinin bölmələrimizin, eyni zamanda azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinə cəlb edilmiş mülki şəxslərin təhlükəsizliyini təmin etmək məqsədi daşıdığı xüsusi vurğulanıb.

Bir daha bəyan edilib ki, baş vermiş genişmiqyaslı təxribat nəticəsində yaranan gərginliyə, qarşıdurma və itkilərə görə bütün məsuliyyəti məhz Ermənistanın hərbi-siyasi rəhbərliyi daşıyır.

## Azərbaycandakı dini konfessiyaların rəhbərləri Ümumdünya Kilsələr Şurasına müraciət ediblər

Azərbaycandakı dini konfessiya rəhbərləri Ümumdünya Kilsələr Şurasına müraciət ediblər.

Bu barədə AZƏRTAC-a Qafqaz Müsəlmanları İdarəsinin Mətbuat xidmətindən məlumat verilib.

Müraciətdə deyilir: "2022-ci il avqustun 31-dən sentyabrın 8-dək Ümumdünya Kilsələr Şurasının Almaniyanın Karlşrue şəhərində keçirilmiş 11-ci Assambleyası tərəfindən "2020-ci il Dağlıq Qarabağ müharibəsinin nəticələri haqqında Protokol" adlı sənəd yayılıb.

Bununla əlaqədar biz - Azərbaycanda fəaliyyət göstərən müsəlman, pravoslav, yəhudi və alban-udi konfessiyalarının rəhbərləri təmsil etdiyimiz icmaların ümumi rəyini ifadə edərək aşağıdakıları bildiririk:

Sözügedən sənəddə bütün dini icmaların əsrlər boyu sülh və əmin-amanlıq içində yaşadığı vətənimiz Azərbaycana qarşı qərəzli, əsassız və ədalətsiz ittihamlar yer alır.

Sənədin təşəbbüskarları Ümumdünya Kilsələr Şurasının təqdim etdiyi platformadan öz məkrli siyasi məqsədləri üçün sui-istifadə edir, məqsədyönlü şəkildə bu mötəbər qurumun üzvləri olan xristian icmalar arasında 30 il ərzində Ermənistan silahlı qüvvələri tərəfindən işğala məruz qalmış Azərbaycana münasibətdə yanlış fikir formalaşdırmaq cəhdlərini davam etdirir. Onların məqsədi Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin Ermənistan tərəfindən kobudcasına pozulması, on minlərlə dinc Azərbaycan vətəndaşlarının soyqırımına məruz qalaraq qəddarcasına qətlə yetirilməsi, bir milyona yaxın insanın məcburi köçkün vəziyyətə salınması, işğal olunmuş ərazilərdə misli görünməmiş səviyyədə dağıntı və talan faktlarını gizlətmək, bölgəmizdə hazırda həyata keçirilən sülh səylərinə mane olmaq və Ermənistandakı revanşist qüvvələrə dəstək verməkdir.

Sənəddə dili və ruhu həqiqəti əks etdirməməklə yanaşı, açıq-aşkar riyakar ruhda təqdim olunur və real vəziyyətin şahidlərində ikrah hissi oyadır. Ümumdünya Kilsələr Şurası kimi mötəbər qurumun işğal və etnik təmizləmə tərəfdarlarının narrativinin təbliği, manipulyasiya və təxribat xarakterli əməlləri üçün platforma kimi sui-istifadə olunması onun məqsəd və prinsiplərinə ziddir, dinlər və mədəniyyətlərarası dialoq və regional sülh səylərinə xələl yetirir.

Daha əvvəl Qafqaz Müsəlmanları İdarəsi adından 11-ci Assambleyanın başlaması münasibətilə Ümumdünya Kilsələr Şurasının Baş katibi vəzifəsini icra edən cənab İonn Saukaya məktub göndərilərək tədbirin bütün iştirakçılarına təbriklər çatdırılıb. Təəssüf doğuran haldır ki, işğal və etnik təmizləmə tərəfdarları növbəti dəfə dini platformada özünün revanşizm və nifrət təbliğatını işə salaraq ölkəmiz əleyhinə belə sənədin yayılmasına nail olub.

1993-cü ilin fevralında Ümumdünya Kilsələr Şurası və Avropa Kilsələr Konfransının təşəbbüsü ilə Möntre şəhərində erməni kilsəsinin ovaxtkı rəhbəri I Vazgen ilə görüşdə Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dini motiv daşımadığı bəyan edilib və erməni katolikosu ilə imzalanmış birgə bəyanatda münaqişənin sülh yolu ilə həllinə dəstək bildirilib. Təəssüf ki, o vaxt əldə olunmuş bu ümumi mövqeyimizdən fərqli olaraq, Ümumdünya Kilsələr Şurasının bir sıra üzvləri artıq həllini tapmış münaqişə ilə bağlı hazırda xristian təəssübkeşliyi və müəyyən mənada "səlibçi" düşüncəsini təbliğ etməyi davam edir.

Bizim qənaətimizə görə milli və dini təəssübkeşlik mənfi anlam daşımır, lakin beynəlxalq hüquqa, haqqa və ədalətə söykənməyən təəssübkeşlik heç bir dinin və mənəviyyatın təməl prinsiplərinə uyğun gələ bilməz.

Azərbaycanın işğal olunmuş əraziləri azad edildikdən sonra o bölgələrə çoxsaylı səfərlər edən beynəlxalq hökumətlərarası təsisatlar, qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyəti və xarici kütləvi informasiya vasitələrinin nümayəndələri Ermənistan tərəfindən törədilən urbisid, ekosid, mədəni və dini abidələr, müsəlman, alban-udi və pravoslav ibadətgahlarına qarşı vandalizm əməllərinin həqiqi miqyasının canlı şahidi olur, bu cinayətləri sənədləşdirir.

Ermənistan tərəfindən Azərbaycan ərazilərinin hərbi işğalı nəticəsində 700-dən çox tarixi və mədəniyyət abidəsi, 927 kitabxana, 808 mədəniyyət mərkəzi, 85 musiqi və sənət məktəbi, 100 mindən çox əsərlə 22 muzey, 4 sənət qalereyası, 4 teatr və 2 konsert salonu məhv olunub və talan edilib, yandırılmış torpaq siyasəti tətbiq edilib. Bu ərazilərdə qalan və qeydiyyatda olan 67 məsciddən 65-i tam dağıdılıb, digər ikisi isə acınacaqlı vəziyyətə salınıb. Bir vaxtlar inkişaf etmiş Azərbaycanın inzibati mərkəzləri xarabalıqlara çevrilib. Hazırda işğaldan azad olunmuş ərazilərimizə səfər edən beynəlxalq ictimaiyyətin nümayəndələri bu məntəqələri "ruhlar şəhəri" və "Azərbaycanın Xirosiması" adlandırıblar.

Hər kəsə məlumdur ki, Ermənistandan fərqli olaraq Azərbaycanda, onun paytaxtı Bakıda və bölgələrində müxtəlif millətlərin və dinlərin nümayəndələri, o cümlədən minlərlə erməni əsilli vətəndaşlarımız sülh və əmin-amanlıq şəraitində dinc yaşayır, Bakının mərkəzində erməni kilsəsi və onun kitabxanası lazımi şəraitdə saxlanılır və dövlət tərəfindən qorunur. Bununla belə, Azərbaycanın 30 ilə yaxın müddətdə işğal olunmuş ərazilərində məscidlər, məbədlər, qəbiristanlıqlar, tarixi abidələr, muzeylər, kitabxanalar dağıdılıb və talan edilib, məscidlər tövləyə çevrilib, orada islam dinində haram sayılan heyvanlar saxlanılaraq bütün islam dünyasına həqarət olunub.

Ermənistan öz ərazisindəki azərbaycanlıların dini abidələrini, İrəvanın "Şah Abbas", "Sərdar", "Hacı Novruz Əli" məscidlərini və digər dini tarixi abidələri tamamilə dağıdıb, yeganə İrəvanda qalan Göy məscidinin orada qəsdən törədilən yanğından sonra memarlıq xüsusiyyətlərini dəyişdirib. Müsəlman məscidlərinin dağıdılması ilə kifayətlənməyən Ermənistan Şuşadakı "Vəftizçi Yəhya" pravoslav kilsəsini, digər bölgələrdəki qədim Qafqaz Albaniyasına məxsus kilsələri qriqorianlaşdırıb, Xocavənd pravoslav kilsəsini isə tamamilə məhv edib.

Ermənistan tərəfi beynəlxalq ictimaiyyətin çoxsaylı tələblərinə məhəl qoymayaraq Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyi barədə heç bir məlumat vermir. Bundan əlavə, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılmasından iki ilə yaxın vaxt keçməsinə baxmayaraq, işğalçı ordu tərəfindən bu ərazilərdə basdırılan minalar nəticəsində bu günədək dinc sakinlər əlil olur və həyatlarını itirirlər. Müharibə başa çatsa da vətəndaşlarımıza qarşı Ermənistanın mina terroru davam edir ki, onun qurbanlarının sayı hazırda 242 nəfərə çatıb.

Dini icma rəhbərləri və din xadimləri işğalçı müharibəyə və qarşıdurmaya xidmət edən amallara deyil, humanizm ideyalarına - dinlərarası harmoniya və dialoqa, razılaşma və qarşılıqlı anlaşmaya töhfə verməlidirlər.

Multikultural ənənələrə sadiq qalan Azərbaycan hökuməti mədəni-mənəvi dəyərlərin qorunması siyasətini öz fəaliyyətinin prioritet istiqaməti kimi həyata keçirir və nəinki ölkə daxilində, eləcə də dünyanın müxtəlif regionlarında - o cümlədən Vatikanda, Fransada, Bolqarıstanda, Serbiyada tarixi abidələrin, məscid və kilsələrin bərpası işinə əvəzsiz töhfələr verir. Dünyanın multikulturalizm mərkəzlərindən biri kimi tanınan Azərbaycan sivilizasiyalararası və dinlərarası dialoqu təbliğ edən bir sıra nüfuzlu beynəlxalq tədbirlərə, o cümlədən dünya dini liderlərinin 2010-cu ildə I Sammiti və 2019-cu ilin noyabrında keçirilmiş II Sammitinə evsahibliyi edib. Burada xatırlatmaq lazımdır ki, I Sammitdə erməni katolikosu II Qaregin də iştirak etmişdir və səfəri zamanı o, Bakıda yerləşən vaxtilə çalışdığı erməni kilsəsini ziyarət edib. 2016-cı ilin oktyabrında Azərbaycana səfər edən Roma Papası Fransisk ölkəmizdə müxtəlif mədəniyyətlər və dini konfessiyalar arasında əməkdaşlığı və dialoqu yüksək dəyərləndirib.

Birmənalı şəkildə bildiririk ki, Azərbaycan ərazilərindəki müqəddəs yerlər və burada yaşayan millətlərin mədəni və mənəvi irsi ilə bağlı təxribatçı təbliğata uymağa əsas yoxdur. Bu gün Azərbaycan dövləti işğaldan azad edilmiş torpaqlarda törədilmiş vandalizm aktları nəticəsində dağıdılmış, təhqir olunmuş mənsubiyyətindən asılı olmayaraq mədəni və dini abidələri bərpa edir, burada yerləşdirilmiş minalardan təmizləyərək yenidənqurma işləri aparır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "...bizim ərazimizdə olan bütün məbədlər tarixi sərvətimizdir və onlar dövlət qayğısı ilə əhatə olunur" bəyanatı Azərbaycan dövlətinin bu sahədə həqiqi siyasətinin ən bariz nümunəsidir.

Bir daha Ümumdünya Kilsələr Şurasının 11-ci Assambleyasında yayılmış "2020-ci il Dağlıq Qarabağ müharibəsinin nəticələri haqqında Protokol" adlı qərəzli sənədlə bağlı Azərbaycandakı konfessiya nümayəndələri adından dərin narahatlığımızı və etirazımızı bildiririk. Nüfuzlu təşkilat olan Ümumdünya Kilsələr Şurasının belə təxribatlar üçün istifadə olunması qəbuledilməzdir, bu mötəbər qurumun məqsəd və prinsiplərinə xidmət etmir.

Biz Ümumdünya Kilsələr Şurasının rəhbərliyini və təşkilatda təmsil olunan xristian icmalarını bu və əvvəllər də yer almış təxribatçı təşəbbüsləri ən sərt formada inkar etməyə, gələcəkdə belə hallara qəti şəkildə yol verməməyə çağırırıq. Ümid edirik ki, bundan sonra qurumun meyarlarına uyğun olan obyektivlik və ədalət prinsiplərinə əsaslanan konstruktiv mövqe nümayiş etdiriləcək, dinlərarası dialoq, sülh və əmin-amanlığa xidmət edən səylərə dəstək göstəriləcək.

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
***Qafqaz Müsəlmanları İdarəsinin sədri***

***Melih YEVDAYEV,***
***Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri***

***Arximandrit ALEKSİY,***
***Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi***

***Aleksandr ŞAROVSKİ,***
***Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri***

***Robert MOBİLİ,***
***Azərbaycandakı Alban-Udi Xristian Dini İcmasının sədri"***

# "Dəmir yumruğ"un növbəti zəfəri

## Azərbaycana qarşı hərbi təxribatlar Ermənistana bu dəfə də baha başa gəldi

Son günlər Azərbaycan Ordusunun dövlət sərhədi istiqamətində mövqelərini intensiv atəşə tutan Ermənistanın hərbi bölmələri sentyabrın 12-dən 13-nə keçən gecə layiqli cavablarını aldılar. Ordumuzun həyata keçirdiyi qətiyyətli cavab tədbirləri bir daha göstərdi ki, "dəmir yumruq" yerindədir və düşmənin istənilən təxribatçı hərəkətinin qarşısını dərhal alır. Növbəti dəfə təxribat törədən erməni silahlı qüvvələri canlı qüvvə və döyüş texnikası sarıdan böyük tələfat veriblər.

### Ordumuz düşməni canlı qüvvə və texnika sarıdan ciddi itkilərə məruz qoyub

Azərbaycan Ordusunun mövqelərinin Ermənistan ərazisindən atəşə tutulması son günlər daha da intensivləşmişdi. Xüsusən bu ölkənin tarixi Azərbaycan əraziləri olan Basarkeçər, Çəmbərək, Gorus, Qarakilsə və Tovuzqala rayonlarından Kəlbəcər, Laçın, Daşkəsən və Gədəbəy rayonları istiqamətlərində təxribatların həyata keçirilməsi sistemli hal almışdı. Bir neçə gün əvvəl hətta bölmələrimizin təminat yollarının çəkilməsi məqsədilə yol işləri aparan mülki şirkətə məxsus texnika da atəşə məruz qalmışdı.

Təxribatçı əməllərini davam etdirən düşmənin diversiya qrupları sentyabrın 12-də sutkanın qaranlıq vaxtında ərazinin dağlıq relyefindən və mövcud dərə boşluqlarından istifadə edərək müxtəlif istiqamətlərdə Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı ərazilərin və təminat yollarının minalanmasını həyata keçirib. Azərbaycan Müdafiə Nazirliyinin məlumatına əsasən, bu əməllərin qarşısının dərhal alınması məqsədilə bölmələrimiz tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində döyüş toqquşması baş verib. Bununla yanaşı, sentyabrın 12-dən 13-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin Basarkeçər, İstisu, Qarakilsə və Gorus yaşayış məntəqələri istiqamətində yerləşən bölmələri tərəfindən Azərbaycan Ordusunun Daşkəsən, Kəlbəcər və Laçın rayonları ərazisindəki bəzi mövqeləri, sığınacaqlar və dayaq məntəqələri müxtəlif çaplı silahlar, o cümlədən minaatanlardan intensiv atəşə tutulub. Nəticədə şəxsi heyət arasında itkilər olub, hərbi infrastruktura ziyan dəyib.

Təbii ki, vəziyyət belə qala bilməzdi və Müdafiə Nazirliyinin məlumatına əsasən, Ermənistan silahlı qüvvələrinin təxribatının və ölkəmizin ərazisinə və suverenliyinə qarşı hərbi təhlükələrin qarşısının alınması, hərbi qulluqçularımızın, o cümlədən Kəlbəcər və Laçın rayonları ərazisində infrastruktur işlərinə cəlb olunmuş mülki işçilərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə ordumuzun bu istiqamətdə dislokasiya olunan bölmələri tərəfindən qəti cavab tədbirləri görülüb.

"Dəmir yumruğ"un qətiyyətli cavab əməliyyatı nəticəsində Ermənistan ordusunun atəş nöqtələri darmadağın edilib. Müzəffər Ordumuz düşmənin təxribat əməliyyatlarına cəlb olunmuş canlı qüvvəsini və döyüş texnikasını ciddi itkilərə məruz qoyub.

### Xəstə erməni təfəkküründən normal məntiq gözləmək mümkün deyil

Xatırladaq ki, bundan əvvəl genişmiqyaslı hərbi əməliyyat avqustun 3-də baş vermişdi. Həmin vaxt Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin ünsürləri ordumuzun bölmələrinə qarşı terror-təxribat əməli törətmiş, nəticədə hərbi qulluqçumuz Anar Kazımov şəhid olmuşdu.

Bundan əlavə, qeyri-qanuni erməni silahlı dəstələrinin ünsürləri Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirməyə və orada yeni döyüş mövqelərini qurmağa cəhd göstərmişdilər.

Azərbaycan Ordusunun keçirdiyi "Qisas" cavab əməliyyatı nəticəsində ərazidəki Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ sisteminin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər nəzarətə götürülmüşdü. Əməliyyat çərçivəsində qeyri-qanuni erməni silahlı ünsürlərinin bir neçə döyüş mövqeyi dağıdılmış, keçmiş Ağdərə rayonunun Yuxarı Oratağ yaşayış məntəqəsindəki hərbi hissəyə havadan zərbə endirilmişdi. Nəticədə qanunsuz erməni silahlılarının canlı qüvvəsi məhv edilmiş və yaralanmış, həmçinin bir neçə D-30 haubitsası, hərbi nəqliyyat vasitələri və çoxlu sayda döyüş sursatı məhv edilmişdi.

Bu hadisədən sonra Ermənistana bir daha xəbərdarlıq edən Prezident İlham Əliyev demişdi: "Bu hərbi təxribat nəticəsində bir hərbçimiz şəhid oldu. Allah ona rəhmət eləsin. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Ancaq hər kəs gördü və görməlidir ki, şəhidimizin qanı yerdə qalmadı. Biz dərhal "Qisas" əməliyyatı keçirərək şəhidimizin qanını aldıq və qarşı tərəfi ciddi cəzalandırdıq. Bir neçə saat ərzində davam edən "Qisas" əməliyyatı cəza tədbiri idi. Azərbaycan şəhidinin qanı düşmənlərə baha başa gəldi və onlar bunu unutmamalıdır. Əgər yenə də buna oxşar təxribat törədilərsə, cavab da eyni olacaq və heç kim bizə mane ola bilməz, heç kim bizi durdura bilməz".

Bu əməliyyatdan və xəbərdarlıqdan sonra məntiqlə normal təfəkkür sahibi növbəti təxribata əl atmalı deyildi. Amma Ermənistanda bunun əksini görürük. Və bir daha aydın olur ki, xəstə erməni təfəkküründən normal məntiq gözləmək mümkün deyil.

### Ermənistan münasibətlərin normallaşmasında və sülh prosesində maraqlı deyil

Əlbəttə, baş verənlərdə Ermənistanın münasibətlərin normallaşdırılması prosesindəki destruktiv mövqeyi də əsas rol oynayır. Hələ Vətən müharibəsindən əvvəlki dönəmdə danışıqlar prosesinin gedişatı göstərir ki, hansısa irəliləyiş məqamında və hansısa razılaşma üçün şərait yarananda İrəvan cəbhə xəttində təxribat törədib.

Eyni xətti bu günkü Ermənistan rəhbərliyi davam etdirir. Belə ki, üçtərəfli bəyanatlar və əldə edilmiş razılıqlar çərçivəsində üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən boyun qaçırması, qanunsuz erməni silahlı birləşmələrini Azərbaycan ərazisindən çıxarmaması, kommunikasiyaların və nəqliyyat marşrutlarının açılması işlərində prosesin pozulmasına yönəlmiş şərtlərin irəli sürülməsi, Ermənistanda istehsal olunan minaların son zamanlarda Laçın ərazisində yerləşdirilməsi də daxil olmaqla ərazilərin minalanmasının davam etdirilməsi İrəvanın münasibətlərin normallaşdırılmasının qarşısını almağa hesablanmış məqsədyönlü və destrukiv fəaliyyətinin göstəricisidir. Görünən odur ki, Ermənistan münasibətlərin normallaşmasında və bütövlükdə sülh prosesində maraqlı deyil.

Onu da qeyd edək ki, Ermənistan rəhbərliyi hər dəfə belə təxribatlarının iflasa uğramasından sonra ora-bura zəng edir, xarici siyasi mərkəzlərdən dəstək almağa çalışır. Bu dəfə də eyni hal təkrarlandı. Paşinyanın gecənin yarısı zəng etmədiyi dövlət başçısı olmadı, yenə də telefonlardan sallanaraq, ordan-burdan kömək istədi. Amma bütün bunlar Azərbaycanın Ermənistanı cəzalandırmaq tədbirlərinin qarşısını ala bilməzdi, necə ki, 44 günlük müharibədə Azərbaycan Ordusu işğalçılara döyüş meydanında divan tutmuşdu. Bu dəfə də Ermənistan üz tutduğu dövlətlərdən və təşkilatlardan heç bir dəstək ala bilmədi.

### Paşinyan xaricdən silah ala bilmir

Ermənistanın təxribatları nəticəsində baş verən döyüş əməliyyatları zamanı Azərbaycan Ordusunun hərbi qulluqçuları arasında şəhidlik zirvəsinə yüksələnlər də oldu. Lakin onların qanı yerdə qalmadı. Düşmən çoxsaylı canlı itkiyə məruz qaldı. Dünən Ermənistan parlamentindəki çıxışında baş nazir N.Paşinyan da Ermənistanın böyük canlı itkiyə məruz qaldığını etiraf etdi.

Paşinyanın bir etirafı da Ermənistanın xarici ölkələrdən silah alması ilə bağlı oldu. Belə ki, erməni baş nazir bildirib ki, Ermənistan silah alınması üçün bütün maliyyə imkanlarına sahibdir, lakin elə ölkələr var ki, onlara silah satmırlar. Öncə onu qeyd edək ki, heç də bütün ölkələr inkişaf etmiş hərbi sənaye kompleksinə malik deyillər. Həmçinin bu sahədə aparıcı dövlətlər hər ölkəyə silah satmırlar. Fəxrlə qeyd edə bilərik ki, bu gün Azərbaycan inkişaf etmiş hərbi sənaye kompleksinə malik olan ölkələrlə səmərəli əməkdaşlıq edir. İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun tətbiq etdiyi modern hərbi texnika da bunu təsdiqləyir. Ermənistana gəldikdə, birincisi, bu ölkə silah almaq üçün güclü maliyyə imkanlarına malik deyil, erməni lobbisinin ianələri isə müasir silahların alınması üçün yetərli ola bilməz. Ermənistana silah satılmaması isə bir çox amillərlə bağlıdır. Onların sırasında, təbii ki, bu ölkənin işğalçı siyasət yürütməsi və Azərbaycanın siyasi-diplomatik fəaliyyəti əsas rol oynayır.

Bütövlükdə Ermənistanın hərbi təxribatı bəlli həqiqətlərə yeni aydınlıq gətirdi. Bir daha məlum oldu ki, 44 günlük müharibədə darmadağın edilən Ermənistan hələ də məğlubiyyətindən dərs götürmək istəmir. Ən əsası, bir daha sübut olundu ki, respublikamıza qarşı istənilən təhdid və təxribat Ermənistana baha başa gələcək. Xəbərdarlıqlardan nəticə çıxarmaq istəməyən Ermənistanın təxribatının qarşısının qətiyyətlə alınması, düşmənin şəxsi heyətinin və atəş nöqtələrinin məhv edilməsi göstərdi ki, "dəmir yumruq" istənilən an düşmənin başını əzməyə qadirdir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Haqq savaşçıları

## Şanlı Azərbaycan əsgəri Vətənimizə göz dikən yağını hər an məhv etməyə hazırdır

Bu azman oğullar şücaətləri ilə azad etdilər Vətən torpaqlarını...
Bu ərənlərin hünəri ilə ay-ulduzlu, üçrəngli müqəddəs bayraqlarımız dalğalandırıldı işğaldan qurtulan yurdlarımızın şah zirvələrində...
Şanlı Azərbaycan əsgərinin, haqq savaşçılarının Zəfər yürüşü qovuşdurdu bizi ana torpağa...

### Qələbəyə inamla

2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatı və birbaşa mülki əhalini hədəfə alması xalqımızın səbrini daşıran son damla oldu. Müzəffər Ali Baş Komandanın vətən uğrunda "İrəli" əmri ilə on minlərlə gəncimiz öz ata-baba yurdlarının harayına hay verdi. İgidlərimiz silaha sarılaraq mənfur düşmənə həddini bildirməyə, illərdir ürəyimizdə yaraya, könlümüzdə qubara çevrilən Qarabağı düşmən əsarətindən qurtarmağa şığıdılar.

Qələbəyə doğru inamla irəliləyən mərd əsgərlərimiz düşməni torpaqlarımızdan qarış-qarış qazıyıb atmağa, kəndlərimizi, şəhərlərimizi bir-bir azad etməyə başladılar. Vətən müharibəsinin 44 gününün hər birində xalqımız Zəfər təntənəsi yaşadı.

Hər gün ön cəbhədən arxaya xoş müjdələr gəldi. Azərbaycan başdan-başa qələbə əhvalına büründü, sevinc gözyaşları tökən insanlarımız əllərində üçrəngli bayraqlarımızla Şəhidlər xiyabanlarına üz tutaraq qisasın qiyamətə qalmadığını müjdələməyə tələsdilər.

O 44 gün ərzində düşmənə qəzəb hissi ilə silahlanmış vüqarlı oğullarımız daim irəli atıldılar, nə yerdə, nə göydə mənfurlara aman verməyərək onları qarşılarında diz çökdürdülər.

### Tarixi ədalət zəfər çaldı

Tarixin 8 noyabr 2020-ci il təqvimi isə Azərbaycan xalqının taleyinə Zəfər günü kimi qızıl hərflərlə həkk olundu. O gün ilahi əzm nümayiş etdirərək Qarabağın baş tacı, vətən qibləmiz Şuşanı dünyada misli görünməmiş qəhrəmanlıqla azad edən igidlərimiz xalqımıza parlaq qələbə bəxş etdi. Qorxmaz oğullarımızı Şuşanın azadlığı yolunda çıxdıqları müqəddəs yoldan nə uca dağlar, nə keçilməz meşələr, nə də aşılmaz sıldırımlar yayındıra bildi. Qəhrəmanlarımız biləklərinin haqqı ilə nahaqqa qalib gəldilər, torpaqlarımızda rişələnmək istəyən zülmün kökünü kəsdilər. İşğalçı, xain, mənfur, hiyləgər, faşist xislətli düşməni məhvə məhkum etdilər.

"Dəmir yumruq" əməliyyatı adı ilə Azərbaycanın hərb tarixinə yazılan 44 günlük Vətən savaşı ərzində igid əsgərlərimizin hər biri öz şücaəti ilə qəhrəmanlıq dastanı yazdı.

İgidlərimiz ana yurd uğrunda öz canlarını qurban verməkdən belə çəkinməyərək şəhid, qazi oldular, amma yenə də düşmənə aman vermədilər, mənfurun nəfəsini boğdular. Bayrağımızı illərlə həsrətini çəkdiyimiz yurdlarımızda qürurla dalğalandırdılar.

Haqq uğrunda çıxdığımız Vətən müharibəsi əzmkar oğullarımızın polad iradəsi sayəsində cəmi 44 gün ərzində qələbə ilə başa çatdı, tarixi ədalət zəfər çaldı...

### Qisasımız ağır olur

10 noyabr 2020-ci ildə əzici məğlubiyyətinin altına rəsmən imza atan Ermənistan ötən bu müddət ərzində təcavüzkar siyasətindən əl çəkmədi, sərsəm davranışlar sərgilədi.

Azərbaycanın onlara səbirli yanaşmasından sui-istifadə edərək, barışığa əngəl olmaq üçün, müxtəlif təxribatlar törətmək üçün quduz iştaha qapıldı, ölkəmizə qarşı müxtəlif təxribatlara əl atdı. Gah ərazilərimizə mina basdırdı, gah qanunsuz səfərlər təşkil etdi, gah da sərhədlərimizdə atəşi pozmaqla həddini aşdı. Necə deyərlər, zaman dəyişir, amma ermənin faşist xisləti dəyişmir. "Qozbeli qəbir düzəldər" gerçəkliyi də öz yerində...

Amma xain düşmən hər dəfəsində törətdiyi mənfur əməllərinin layiqli qarşılığını artıqlaması ilə alır. Çünki Azərbaycan əsgərinin "dəmir yumruq" zərbəsi hər an düşmənin başı üzərindədir. Elə bu ilin avqustunda da azğın düşmən özbaşınalıq edərək sərhədlərimizdə təxribat törətməyə çalışmışdı və Azərbaycan Ordusunun "Qisas" cavab əməliyyatı nəticəsində sarsıdıcı zərbəyə məruz qalaraq yerində otuzdurulmuşdu.

Eləcə də faşist xislətli ermənilərin sentyabrın 12-də gecə saatlarından başlayaraq Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törətmələrinə cavab olaraq qəhrəman oğullarımız düşmənin yenidən başını əzdi, mənfurları məhvə məhkum etdi.

### Vətən sevdalı oğullar

Bəli, bu gün 30 illik Qarabağ həsrətindən qurtulmuşuqsa, yüz minlərlə vətəndaşımızın yurd nisgilinə son qoyulubsa, üçrəngli ay-ulduzlu bayrağımız bütün zirvələrimizdə qürurla dalğalanırsa, bu, məhz vətən sevdalı oğullarımızın sayəsində mümkün olub.

Cənnət qoxulu vətənimiz bütöv olsun deyə, xalqımız Odlar yurdunda xoşbəxt yaşasın deyə mərd oğullarımız Vətənin keşiyində ayıq-sayıq durublar.

Ey şanlı Azərbaycan əsgəri, Zəfər savaşçıları!

Canını ana torpağa qurban deyən, şəhadət aşiqləri, Vətən fədailəri!

Siz ey, qəhrəman, şücaətli, igid Azərbaycan oğulları!

Fəxr ünvanımız, qürur mənbəyimizsiniz...

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Erməni təxribatlarının qarşısı qətiyyətlə alındı

## Mövqelərimizə təhdid yarada biləcək bütün strateji nöqtələr nəzarətə götürülüb

Ermənistan davamlı olaraq mövqelərimizi atəşə tutur, son bir ayda isə bu prosesin intensivləşdiyi müşahidə olunurdu.

Eyni zamanda Ermənistan tərəfindən Azərbaycan sərhədləri boyunca hücum təyinatlı silahları, ağır artilleriya vasitələrini və şəxsi heyəti cəmləşdirməsi müşahidə olunmaqda idi. Sonuncu Brüssel görüşündən sonra sülh sazişinin bağlanması istiqamətində işlərin sürətlənəcəyi halda Ermənistan tərəfindən belə addımların atılması müqaviləni bağlamaqdan yayınmaq və ya gecikdirmək istəyindən başqa bir şey deyildi.

Sonuncu təxribat isə sentyabrın 12-də gecə saatlarında Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində törədilib. Təbii ki, təxribatların qarşısı rəşadətli ordumuz tərəfindən qətiyyətlə alınıb.

Müdafiə Nazirliyinin məlumatına görə, Ermənistan silahlı qüvvələrinin diversiya qrupları sutkanın qaranlıq vaxtında ərazinin dağlıq relyefindən və mövcud dərə boşluqlarından istifadə edərək müxtəlif istiqamətlərdə Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı ərazilərin və təminat yollarının minalanmasını həyata keçirib. Bu əməllərin qarşısının dərhal alınması məqsədilə bölmələrimiz tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində döyüş toqquşması baş verib.

### Sülh müqaviləsindən yayınmaq ermənilərin xislətidir

Sərhəddə baş verən son təxribatla bağlı Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Arzu Nağıyev qəzetimizə bildirib ki, sentyabrın 12-si gecə saatlarından başlayaraq Ermənistan hərbçiləri Azərbaycan-Ermənistan sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətində mövqelərimizi atəşə tutub, eyni zamanda mövqelər arasındakı əraziləri minalayıb, hərbi postlara tərəf həm iriçaplı silahlardan, həm də minaatanlardan atəş açaraq təxribat törədiblər.

Deputat qeyd edir ki, Azərbaycan Ordusu adekvat cavab verməklə düşmənin təxribat törətdiyi mövqeləri məhv edib, bir sıra yüksəkliklər ordumuzun nəzarətinə keçib. Artıq Ermənistan rəhbərliyi Rusiya Prezidentinə və digər dövlət rəhbərlərinə zəng edir, yalvarmaqla prosesləri dayandırmağa çalışır.

Arzu Nağıyev deyir ki, bir aya yaxındır ermənilər təxribatları intensivləşdirib: "Onların Azərbaycan-Ermənistan sərhədində təxribat törətməkdə məqsədləri delimitasiya və demarkasiya prosesi ilə bağlı komissiyaların başlanılan işini pozmaq, status-kvonu saxlamaqdır. Digər məsələ isə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü olmaqla, müxtəlif dövlətləri bu proseslərə cəlb etmək və ya missiyasını başa vurmuş ATƏT-in Minsk qrupunun fəaliyyətinin yenidən bərpa olunmasını istəmələridir".

Deputatın sözlərinə görə, istər Brüssel, istərsə də Rusiyada keçirilən görüşlər, sülhün bərqərar edilməsi üçün atılan addımlar ərəfəsində, həmçinin bundan əvvəl və sonra da prosesləri pozmaq, qondarma statusu ortaya atmaq və sülh müqaviləsindən yayınmaq ermənilərin xislətindədir. Bu, Ermənistanın həm daxili, həm də xarici siyasətindən irəli gəlir.

Deputat bütün bunlara baxmayaraq, Azərbaycan Ordusunun öz yerində, gücündə olduğunu, ermənilərin təxribatlarının qarşısını qətiyyətlə aldığını vurğulayır: "Azərbaycan və Ermənistan arasında imzalanacaq sülh sazişi kimə ziyan vura bilər? Sülh bərqərar olarsa, Köçəryan və bu kimi digər qüvvələrin hamısı həbs oluna bilərlər. Onlar son 30 ildə törətdikləri cinayətlərə görə beynəlxalq məhkəmələr qarşısında cavab verməlidirlər. Buna görə nəyin bahasına olursa-olsun sülh prosesinə mane olmağa çalışırlar".

### Ermənistan təcavüzkar dövlət obrazında sülh sazişi bağlamaq məcburiyyətində qalacaq

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Elşad Mirbəşiroğlu deyir ki, Ermənistan növbəti təxribatını törətməklə bir daha sülh prosesini əngəlləmək istədiyini nümayiş etdirdi.

Deputat qeyd edir ki, Ermənistan heç vaxt sülhün, təhlükəsizliyin təmin olunmasının tərəfdarı olmayıb. Onların missiyası xarici dairələrin maraqlarına xidmət edərək regionda hər zaman münaqişə və gərginliyin olmasından ibarətdir. Lakin 44 günlük Vətən müharibəsində ağır məğlubiyyətə uğrayan Ermənistan məğlub dövlət obrazında da sülh sazişini bağlamaq məcburiyyətində qalacaq.

Elşad Mirbəşiroğlu deyir ki, təxribatların bir neçə səbəbi var: "Birincisi, onlar sülh prosesini dayandırmağa çalışır, ikincisi, olduqca ağır məğlub tərəf obrazında danışıqlar masasına əyləşərək sülh sazişini imzalamaq istəmirlər. Bunun qarşısını almaq üçün Azərbaycan ərazisində yaşayan ermənilərin statusu üzərindən manevr etməyə çalışır və hər vəchlə ATƏT-in Minsk qrupunun yenidən dövriyyəyə qatılmasını istəyirlər. Minsk qrupunun bundansonrakı fəaliyyəti nə praktiki, nə də hüquqi baxımdan mümkündür. Ancaq Ermənistan düşünür ki, əgər məsələni hansısa formada ATƏT-in Minsk qrupu platformasına daşıya bilsə, onda əlavə dəstək alaraq münaqişənin hələ də davam etdiyi təəssüratını yarada biləcək".

Deputat bildirir ki, ABŞ-ın Cənubi Qafqaz regionu üzrə nümayəndəsini həm də ATƏT-in mövcud olmayan Minsk qrupuna həmsədr təyin etməsi sözügedən ölkənin regionda münaqişə vəziyyətinin qalmasına cəhdinin göstəricisidir. Bu cür qeyri-sağlam, destruktiv yanaşma isə regionda təhlükəsizliyə, sülhə gedən yolda böyük maneə yaradır. Məhz Ermənistan da belə hallardan ruhlanaraq təxribatlarını davam etdirir, münaqişənin bitmədiyi təəssüratını yaratmağa çalışır. Bununla da sülh prosesini gecikdirir.

O vurğulayır ki, Ermənistan həm də təcavüzkar dövlət obrazında deyil, guya Azərbaycan ərazisində yaşayan ermənilərin hüququnu müdafiə edən dövlət kimi yekun sülh sazişi imzalamaq arzusundadır. Amma Ermənistanın işğalçılıq siyasətini, təcavüzkar dövlət obrazını heç bir halda kölgədə qoymaq mümkün deyil. Bu obrazda da danışıqlar masasına əyləşərək yekun sülh sazişini imzalamaq məcburiyyətində qalacaq.

E.Mirbəşiroğlu bildirir ki, avqustun əvvəlində Ermənistanın növbəti təxribatlarının qarşısını almaqla yanaşı, bir sıra strateji yüksəkliklərdə nəzarətimizi təmin etdik. Avqustun 31-də Brüsseldə onsuz da güclü olan mövqelərimizi daha da möhkəmləndirmiş şəkildə masaya əyləşdik. Sülh sazişinin müzakirəsi üçün Ermənistanı İşçi qrupu yaratmağa məcbur etdik.

Deputat hesab edir ki, Ermənistan bundan sonra da təxribatlarını davam etdirəcək. Amma Azərbaycanın gücü bu təxribatların qarşısını almağa və öz mövqelərini daha da möhkəmləndirməyə qadirdir. Azərbaycan düşməni daha ağır məğlubiyyətlərə uğradaraq sülh sazişini imzalamağa məcbur edəcək.

Ermənistan bu kimi əməlləri ilə həmçinin Azərbaycanın işğaldan azad edilmiş sərhədyanı rayonlarda həyata keçirdiyi irimiqyaslı mülki infrastruktur layihələrinin icrasını ləngitmək və Azərbaycan sərhədləri yaxınlığında gərginlik mühitini saxlamaq məqsədini güdür. Bununla yanaşı, sülh sazişini gecikdirmək üçün özünə havadar axtarışını da davam etdirir və onlardan kömək istəyir. Lakin bütün bunlar mənasızdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Ermənilər ayağa qalxdılar:

## "Paşinyan, yenə də məğlub olacaqdınsa, balalarımızı niyə qırdırırdın?!"

Sentyabrın 12-də Azərbaycan Ordusunun Daşkəsən, Kəlbəcər və Laçın rayonları ərazisindəki mövqeləri müxtəlif çaplı silahlar, o cümlədən minaatanlardan intensiv atəşə tutulması ilə ordumuzun qətiyyətli cavab əməliyyatı keçirməsi bu dəfə də düşmənə baha başa gəldi.

Azərbaycan Ordusu bununla da ermənilərə növbəti hərbi dərs verdi. Təbii ki, bu vəziyyət Ermənistanda çaxnaşma yaratmaya bilməzdi.

Erməni siyasi ekspert Qayk Kərəmyan qeyd edir ki, hərbi əməliyyatlar fonunda iki ölkə arasında münasibətlərin bərpasının uzanması Ermənistanın sonunu gətirməkdədir. Onun fikrincə, sülh müqaviləsi imzalanmasa, Ermənistanın regional geosiyasi proseslərdən izolyasiya edilməsi daha kəskin xarakter alacaq. Kərəmyan diqqəti ona da yönəldir ki, bütün bu proseslər Ermənistanın sosial-iqtisadi cəhətdən daha böyük problemlər yaşamasına rəvac verir. O vurğulayıb ki, Ermənistan iqtisadiyyatı artıq tamamilə iflasa uğramaq üzrədir. Ölkədə son illər ərzində enerji tariflərinin kəskin yüksəlməsi və əhalinin həyat səviyyəsinin pisləşməsi vətəndaşların sosial narazılığını da artırır.

Ermənistan qlobal kommunikasiya layihələrindən kənarda qalmaqla son 30 ildə özünə qəsd edib.

Erməni siyasi ekspert Armen Simonyan bəyan edir ki, Ermənistan iki ildir sülh müqaviləsinin imzalanmasına maneçilik törədir, müxtəlif bəhanələrlə onu əngəlləməyə çalışır. Baxmayaraq ki, kommunikasiyaların bərpası iqtisadi cəhətdən ciddi problemlər yaşayan Ermənistanın özü üçün olduqca mühüm əhəmiyyət kəsb edir.

Ermənistan parlamentinin deputatı Tiqran Abramyan isə deyib ki, təxribatlar baş verərsə, Azərbaycan müharibənin bitmədiyini daim xatırladır. Müharibədən sonrakı dövrdə isə tərəflər yeni sərhədlər formalaşdırır və bu, yerlərdə əlverişli mövqelər uğrunda gedən bir yarışdır: "Ümumiyyətlə, müharibədən dərhal sonra Azərbaycan tərəfi əsas istiqamətlərdə takti-ki-strateji üstünlük əldə etdi. Ancaq elə sahələr var ki, orada mövqe mübarizəsi hələ də davam edir və bu, situasiya dəyişiklikləri ilə müşayiət olunur. Azərbaycan öz mövqe üstünlüklərindən istifadə edir və Ermənistanın hakimiyyət orqanlarına daim xatırladır ki, razılaşmalar yerinə yetirilməsə, daha ağır hərbi əməliyyatlar gündəmə gələcək. Ermənistan hakimiyyətinə təzyiqlər davam edəcək".

Sosial şəbəkələrin erməni-dilli seqmentini son hadisələr nəticəsində Ermənistan tərəfində itkilərin sayının artması ətrafında müzakirələr zəbt edib. Sosial şəbəkələrdə yayılan xəbərlərdən məlum olur ki, bir gecə ərzində məhv edilən ermənilərin sayı dəfələrlə çoxdur, xeyli yaralı da var.

Bir sözlə, Azərbaycan Ordusunun son dərsi ermənilərdə böyük bir xof, ümidsizlik yaradıb. Erməni siyasətçilərinin səsləndirdikləri fikirlərdən, saytların hazırladıqları reportajlardan, sosial mediada paylaşılan statuslardan və yazılan şərhlərdən bəzilərini oxucuların diqqətinə çatdırırıq.

Karen Simonyan adlı birisi feysbukda yazıb: "Qardaşım Manvellə "Telegram" vasitəsilə axşam danışdım. Mənə dedi ki, Karen, dəhşətli döyüşlərdən sonra qorxu hələ də canımızdadır. Dedi ki, onlarla erməni gənci belə yaşamaqdan bezib, onlar sülh, rahat yaşayış istəyirlər. Müharibə bizə sərf etməz. Texnikada çox geridəyik".

Avaq Qurqenyan adlı istifadəçinin tviterdə paylaşımı isə daha çox "retweet" olunub: "Dünən bir video yayılmışdı ki, azərbaycanlılar bizim postlarımızı məhv ediblər. Azərbaycan əsgəri kabusumuz olub. Paşinyan, yenə də məğlub olacaqdıqsa, bizim balalarımızı niyə qırdırırdın?"

"Odnoklassniki" sosial şəbəkəsində döyüşlərlə bağlı paylaşılan xəbərə Melkon Qasparyan adlı istifadəçinin rəyi daha çox bəyənmə toplayıb: "Qarabağ müharibəsindən sonra növbəti həyəcanı yaşayıram. Həmin vaxt qorxudan sarılıq tapdım. Cermuxda vəziyyət çox qorxuludur. Yalanlardan cana doymuşuq. Axı İlham Əliyev xəbərdarlıq etmişdi. Hər dəfə uduzuruqsa, niyə başlayırsınız? Birtəhər sakit oturmuşduq da. Paşinyan, özünü bizim yerimizə qoy!"

Aşot Babayan adlı istifadəçi isə feysbukda yazıb: "Dayılarım Qarabağda müharibədə ölüb. Daha insanların ölməsini istəmirəm. Boş yerə insanlarımız ölüb. Erməni xalqı indi dünyanın ən cılız xalqına çevrilib. Bu nə bədbəxtlikdir?"

Xoren Sarkisyan adlı İkinci Qarabağ müharibəsi döyüşlərinin iştirakçısı tviterdə çox maraqlı bir statusu ilə diqqət çəkib: "Müharibədə döyüşlərdə sağ qalmağım möcüzə idi. Lakin son itkilərimiz məni ciddi narahat edir. Niyə düzgün rəqəmləri açıqlamırsınız. Qarabağı unudaq, müharibəsiz Ermənistan arzulayaq. Yaxınlarımın, zabit dostlarımın ölüm xəbərini eşidib psixoloji sarsıntı keçirirəm".

Göründüyü kimi, əlavə şərhə ehtiyac yoxdur...

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ



## "Azəri-Çıraq-Günəşli" uzunömürlü olacaq

### 5 il əvvəl imzalanan sazişlə bu nəhəng blokun işlənməsinin yeni dövrü başlandı

2017-ci il sentyabrın 14-də "Azəri-Çıraq-Çünəşli" (AÇG) yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş saziş imzalandı. Heydər Əliyev Mərkəzində yeni sazişin imzalanması mərasimində Prezident İlham Əliyev bunun ölkəmizin həyatında çox əlamətdar və tarixi hadisə olduğunu vurğuladı.

Dövlət başçısı qeyd etdi ki, yeni kontrakt Azərbaycan üçün daha da əlverişlidir. Baxmayaraq ki, 1994-cü ildə imzalanmış müqavilə də bizim maraqlarımızı tam təmin edirdi. Bu dəfə isə daha yaxşı şərtlərlə kontrakt imzalanır.

28 il əvvəl imzalanmış möhtəşəm kontrakt - Xəzərin Azərbaycan sektorundakı AÇG yataqlarının tammiqyaslı işlənməsi və Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) sonralar "Əsrin müqaviləsi" adını almışdır. O zaman Ulu Öndər Heydər Əliyev böyük uzaqgörənliklə demişdir ki, "Əsrin müqaviləsi" qarşıdakı inkişaf yolunun, nəhəng işlərin başlanğıcıdır. Zaman göstərdi ki, bu, həqiqətən də gələcək əsrlərə hesablanmış bir sazişdir.

Yeni saziş isə "Yeni əsrin müqaviləsi" adlandırıldı. Bu sazişn imzalanması Azərbaycanın neft strategiyasının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyinin və getdikcə inkişafının daha bir aydın nümunəsi idi. İlham Əliyev bu layihə ilə Azərbaycanın neft tarixində yeni mərhələnin əsasını qoydu. Bu, eyni zamanda ölkənin iqtisadi gücünün çoxalması, yeni investisiya qoyuluşları, ümumi daxili məhsulun artması, yeni iş yerlərinin açılması və əhalinin sosial rifahının daha da yaxşılaşdırılması deməkdir.

1994-cü ildə AÇG-nin tammiqyaslı işlənməsi üçün saziş 30 il müddətinə imzalanmışdı. Dəyişdirilmiş və yenidən işlənmiş sazişin imzalanması vaxtilə başlanan nəhəng işlərin davamı olaraq 2050-ci ilə qədər uzadıldı.

Xəzərin ölkəmizə məxsus sektorunda, sahildən təxminən 120 kilometr şərqdə yerləşən AÇG yataqları dünyanın ən zəngin neft mənbələrindəndir. "Çıraq"dan artıq 25 ildir neft hasil olunur. 2005-ci ildən "Azəri" yatağı da neft verməyə başlayıb. Xatırladaq ki, "Azəri"nin özü üç hissədən - "Mərkəzi Azəri", "Qərbi Azəri" və "Şərqi Azəri" yataqlarından ibarətdir. Bu da təbiətin Azərbaycana səxavətlə bəxş etdiyi bir sərvətdir. "Günəşli"nin dayaz hissəsi sovet dönəmindən Azərbaycan neftçiləri tərəfindən istismar olunur. Dərinsulu hissəsi isə "Əsrin müqaviləsi"nin tərkibində işlənir.

AÇG yataqlar blokunun işlənməsi layihəsinin reallaşdırılması çərçivəsində Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) cari ilin ilk səkkiz ayında 6,6 milyard dollar gəlir əldə edib.

AÇG üzrə HPBS-dən əldə olunan bilavasitə gəlirlərə Azərbaycan Respublikasına bonus ödənişləri, mənfəət neftindən pay, vergilər, təmənnasız səmt qazı, SOCAR-ın mövcud infrastrukturunun (gəmilər, qazma qurğuları, tikinti-quraşdırma sahələri və s.) modernləşdirilməsi, icarə haqları, məşğulluq fonduna, sosial və digər fondlara ödənişlər daxildir.

"Əsrin müqaviləsi"nin imzalanmasından keçən illər tarix üçün böyük zaman kəsiyi deyil. Bununla belə, həmin qısa dövr ərzində Azərbaycan bir sıra qlobal layihələr həyata keçirmiş, böyük uğurlara imza atmışdır. Bakıdan 55 kilometr cənubda dünyanın ən böyük neft-qaz terminallarından biri - Səngəçal terminalı tikilmişdir. Bakıdan Supsaya uzanan Qərb İxrac Boru Kəməri, üç ölkənin ərazisindən keçən Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri çəkilmişdir. Azərbaycan Bakıdan Avropayadək 3500 kilometr məsafə qət edən, Xəzərin sahilindən başlayıb Adriatik dənizinin altından keçən və İtaliya torpağında quruya çıxan "Cənub qaz dəhlizi"ni yaratmışdır.

Prezident İlham Əliyevin "Yeni əsrin müqaviləsi"nin imzalanmasında dediyi kimi: "Bizim çox böyük maliyyə resurslarımız var. Artıq 1999-cu ildən fəaliyyətə başlamış Azərbaycan Dövlət Neft Fondu bizim üçün çox önəmli bir amildir. Biz valyuta ehtiyatlarımızı artırırıq, hətta neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar yaranmış bəzi çətinliklər də bizi bu yoldan döndərə bilmədi. Biz hətta bu illərdə öz valyuta ehtiyatlarımızı artırmışıq, artıracağıq. Əlbəttə ki, "Əsrin kontraktı"nın uzadılması və "Şahdəniz" layihəsinin, "Cənub qaz dəhlizi"nin icrası nəticəsində bizim maddi imkanlarımız daha da genişlənəcək".

Beləliklə, AÇG ölkəmizin maddi imkanlarının genişlənməsinə daha bir təkan verəcək. Çünki bu, potensialı böyük olan yataqlar blokudur. 2050-ci ilədək bu yataqlar blokuna 40 milyard dollardan artıq sərmayə qoyulması nəzərdə tutulur. Beynəlxalq tərəfdaşlar ARDNF-yə 3,6 milyard dollar bonus ödəyəcəklər. Yeni müqavilənin şərtləri Azərbaycanın və SOCAR-ın son illərdə artan maliyyə və texnoloji potensialını əks etdirməklə yanaşı, həm də xarici tərəfdaş şirkətlərin Azərbaycan iqtisadiyyatına olan inamını da göstərir. Yeni ölkəmizin yaratdığı tərəfdaşlıq formatını yeni müstəviyə qaldırır.

Hazırda "Yeni əsrin müqaviləsi" - "Azəri Mərkəzi Şərqi" (ACE) layihəsi çərçivəsində bir neçə istiqamətdə iş aparılır. AÇG-nin operatoru olan bp şirkətinin məlumatına görə, layihə çərçivəsində inşa edilən eyniadlı platformanın Bibiheybətdəki tikinti sahəsində üst modullarının qazma meydançası istismar sınaqlarına təhvil verilib.

Layihə üzrə işlər eləcə də Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda, Səngəçal terminalında, "Xankəndi" sualtı tikinti gəmisi ilə Xəzərdə də davam etdirilir. Hazırda ACE layihəsinin icrası üzrə işlər ən yüksək həddə çatıb və ümumilikdə onların 75 faizindən çoxu tamamlanıb. Bu işlərə 5000 nəfər cəlb olunub.

İşlərin qrafikə uyğun irəliləməsi göstərir ki, ACE layihəsi çərçivəsində ilk neftin nəzərdə tutulduğu vaxt, yəni 2023-cü ildə əldə edilməsi mümkün olacaq.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Mərkəzi Bank və AYİB əməkdaşlığın genişləndirilməsinə dair müzakirə aparıblar



Ölkəmizdə səfərdə olan Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti xanım Odil Reno-Bassonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımov arasında görüş keçirilib.

AMB-dən bildirilib ki, görüş zamanı Mərkəzi Bankın sədri Azərbaycanın AYİB ilə uzunmüddətli əməkdaşlığının əhəmiyyətini vurğulayıb. O, ölkədə mövcud iqtisadi vəziyyət, o cümlədən maliyyə sektorunda görülən işlər barədə məlumat verərək deyib ki, qlobal bazarlarda baş verən mürəkkəb proseslər, pandemiyanın iqtisadiyyatımız üçün yaratdığı çətinliklərə baxmayaraq Azərbaycanda makroiqtisadi və maliyyə sabitliyi qorunub. T.Kazımov ölkədə yeni nəsil islahatlara start verildiyini, növbəti strateji dövr üçün milli prioritetlərin müəyyənləşdirildiyini qeyd edib.

Bildirib ki, bu islahatlar məzmununa görə məqsədyönlü və konkret strateji hədəflərin reallaşmasına, ölkədə dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşmasına, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin qurulmasına, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanının yaradılmasına, həmçinin Azərbaycanın təmiz ətraf mühit və "yaşıl artım" ölkəsinə çevrilməsinə yönəlib. Ölkədə islahatların həyata keçirilməsində beynəlxalq təşkilatlarla, xüsusilə AYİB ilə əməkdaşlıq daim mühüm rol oynayıb. AYİB strateji tərəfdaş kimi bu islahatlarda da Azərbaycana dəstək göstərəcək.

Odil Reno-Basso öz növbəsində AYİB-in Azərbaycan ilə əməkdaşlığının yüksək səviyyədə olduğunu qeyd edib. Bildirib ki, yaranmış qlobal iqtisadi təhdidlərlə mübarizə şəraitində ölkədə həyata keçirilmiş islahatlar uğurla davam etdirilir. Azərbaycanın elan etdiyi regional əməkdaşlıq təşəbbüsləri ölkə iqtisadiyyatının inkişaf potensialını daha da genişləndirir. Ölkədə AYİB-in dəstəyi ilə həyata keçirilən layihələrin statusu barədə məlumat verərək Azərbaycan iqtisadiyyatında həyata keçirilən müvafiq islahatlara bundan sonra da dəstək veriləcəyini ifadə edib.

Görüşdə Mərkəzi Bank ilə AYİB arasında mövcud əməkdaşlıq istiqamətlərinin genişləndirilməsi imkanları və gələcək inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb.

## Sinqapur şirkəti ilə anlaşma memorandumu imzalanıb



İqtisadiyyat Nazirliyinin İqtisadi Zonaların İnkişafı Agentliyi (İZİA), Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) və Sinqapurun "Indorama Investments Limited" şirkəti arasında anlaşma memorandumu imzalanıb.

İZİA-dan bildirilib ki, sənədi İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə heyətinin sədri Elşad Nuriyev, Dövlət Neft Şirkətinin vitse-prezidenti Kənan Nəcəfov və "Indorama" korporasiyasının idarə heyətinin üzvü Prakash Kejrival imzalayıblar.

Memoranduma əsasən, Sumqayıt Kimya Sənaye Parkında ammonium nitrat, NPK (azot-N, fosfor-P və kalium-K), DAP (diammonium fosfat) və ammonium sulfat gübrələrinin istehsalı zavodunun yaradılması imkanlarının araşdırılması və tərəflər arasında müvafiq məlumat mübadiləsinin aparılması nəzərdə tutulur.

Qeyd edək ki, "Indorama" şirkəti azot gübrələri, fosfat gübrələri, polietilen, polipropilen, poliester, tekstil, pambıq lifi və tibbi əlcəklər də daxil olmaqla bir çox məhsul istehsalı üzrə 9 ölkədə (Özbəkistan, Türkiyə, Hindistan, İndoneziya, Braziliya, Malayziya, Afrika və. s) 20-dən çox sənaye müəssisəsinə malikdir. Şirkətin 18 mindən çox işçisi var.

## Azərbaycan regional nəqliyyat mərkəzinə çevrilir

Rusiya-Ukrayna müharibəsi beynəlxalq yükdaşımaya da mənfi təsir göstərib. Belə ki, bundan əvvəl Rusiya ərazisi ilə Çindən Avropaya və geriyə yüklər daşındığı halda indi bu, mümkün deyil. Buna səbəb müharibə edən Rusiya və Ukrayna arasında nəqliyyat əlaqələrinin olmamasıdır. Üstəlik, sözügedən nəqliyyat marşrutu Avropa tərəfindən Rusiyaya sanksiyaların tətbiqi sayəsində fəaliyyətini dayandırıb. Yaranmış vəziyyət alternativ yolların axtarılmasına səbəb olub.

Beləliklə, Trans-Xəzər marşrutundan istifadə etmək yenidən gündəmə gəlib. Düzdür, "Şərq-Qərb, "Şimal-Cənub" nəqliyyat dəhlizləri cəlbedici olduğu üçün əvvəl də dünya dövlətlərinin maraq dairəsində idi. Ancaq indiki halda bu bir məcburiyyətə çevrilib. Həmin səbəbdən dünyanın aparıcı dövlətləri Azərbaycandan keçən marşrutlara daha çox maraq göstərirlər.

44 günlük Vətən müharibəsindəki tarixi qələbə Azərbaycana dünyada daha önəmli bir tranzit ölkə statusunu qazandırıb. Zəngəzur nəqliyyat dəhlizi Azərbaycandan daha çox və qısa zamanda yüklərin daşınması imkanı yaradır. Təsadüfi deyil ki, sentyabrın 2-də İtaliyanın "İl Sole 24 Ore" qəzetinin müxbirinin dövlət başçısına ünvanladığı suallardan biri də Zəngəzur nəqliyyat dəhlizi ilə bağlı olub.

Prezident İlham Əliyev Azərbaycanın dünyada tranzit ölkə kimi əhəmiyyətini xüsusi vurğulayaraq demişdir: "Bütün bu işlər Rusiya-Ukrayna müharibəsindən əvvəl görülüb. Rusiya-Ukrayna müharibəsi Xəzərin şərq sahilindəki şirkətlər üçün bir siqnal oldu ki, bu marşrut daha da yaxından nəzərdən keçirilməlidir. Biz isə yaxşı tariflər təklif edir və bütün zəruri logistika dəstəyi təmin edirik. Yəni açıq dənizə çıxışı olmayan ölkə olaraq Azərbaycan bu gün regional nəqliyyat mərkəzinə çevrilir - təkcə şərqdən cənuba və geriyə deyil, həmçinin şimaldan cənuba. "Şimal-Cənub" nəqliyyat dəhlizi Azərbaycandan keçir və başqa marşrut variantı yoxdur. Həmin dəhliz, məsələn, Rusiya şirkətləri üçün əhəmiyyətli olur, çünki bu gün sanksiyalar səbəbindən onlar Avropa məntəqələrinə yük daşıya bilmir. Yəni Azərbaycandan keçərək İrana və Fars körfəzi sahillərinə gedən marşrut Rusiya şirkətləri üçün ən cəlbedici olur. Bunu Fars körfəzindən Azərbaycan vasitəsilə Rusiyaya uzanan marşrut haqqında da demək olar".

Dövlət başçısı həmçinin vurğulamışdır ki, ölkəmizin bu sahədə imkanları genişdir. Xəzər dənizindəki Ələt Beynəlxalq Dəniz Ticarət Limanının ildə 25 milyon ton yük və 1 milyon konteyner qəbul etmək imkanı var.

Trans-Xəzər marşrutu yüklərin tez və təhlükəsiz daşınması üçün ən etibarlı vasitədir, həmçinin bu marşrutun texniki imkanları yüksəkdir. Xüsusilə Azərbaycan dövlətinin vaxtında gördüyü işlər sayəsində marşrut üzrə ildə milyonlarla ton yük daşımaq mümkündür. Belə ki, ölkəmiz dəniz üzərindən istənilən yüklərin daşınması üçün güclü bərə yük gəmiləri donanmasına malikdir. Digər tərəfdən, bizdə yükləri qəbul edib, tez yola salmaq imkanı olan dəniz limanları var. Belə imkanlar Asiya və Sakit okean regionu ölkələrinin də Trans-Xəzər marşrutuna olan marağını artırıb. Üstəlik, Çin-Qırğızıstan-Özbəkistan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa beynəlxalq multimodal nəqliyyat dəhlizinin yaradılması layihəsinin iştirakçı ölkələri bu dəhlizlə yük daşımaları üçün güzəştlərin tətbiqi barədə razılığa gəliblər.



Bəs Trans-Xəzər marşrutuna bu qədər maraq göstərilməsinin səbəbi nədir? Birincisi, "Şərq-Qərb" nəqliyyat dəhlizi bütün ölkələrin maraqlarına cavab verir. Belə ki, bu marşrut texniki, tarif, təhlükəsizlik baxımından yükgöndərən və yükqəbuledən tərəflər üçün sərfəlidir. Ən əsası isə, bu dəhlizin çoxşaxəli olmasıdır. Yəni Azərbaycan üzərindən Gürcüstana, İrana, Zəngəzur dəhlizi ilə yüklərin Avropaya rahat daşınması mümkündür. Məsələn, Gürcüstan üzərindən Şərqi Avropa ölkələrinə, Türkiyə üzərindən Qərbi Avropaya, Yaxın Şərqə və Şimali Afrikaya yükləri daşımaq sərfəlidir. Deməli, tərəflər istəklərinə uyğun marşrut seçmək imkanına malik olacaq,

Bu yerdə qeyd edək ki, Ermənistanın Zəngəzur dəhlizinin açılmasını yubatmasına cavab olaraq Prezident İlham Əliyevin təşəbbüsü ilə İranla Şərqi Zəngəzur-Naxçıvan-İran dəhlizinin açılması ilə bağlı imzalanan Anlaşma Memorandumu xüsusi əhəmiyyətə malikdir. Bu həm Naxçıvana, həm də Türkiyəyə yüklərin daşınması üçün böyük imkanlar açır.

İran İslam Respublikası ilə Şərqi Zəngəzur-Naxçıvan-İran dəhlizinin açılması barədə imzalanan Anlaşma Memorandumu Trans-Xəzər marşrutunun beynəlxalq əhəmiyyətini daha da artırıb. Belə ki, yeni dəhlizlə gün ərzində 500 giriş və 500 çıxış olmaqla, gündə 1000 nəqliyyat vasitəsinin keçidi təmin olunacaq. Bu isə yükdaşımada böyük rəqəmdir və Çin başda olmaqla, bütün dövlətlər bundan məmnundur. Bir sözlə, yeni təşəbbüslərin və maraqların artması Azərbaycanın beynəlxalq tranzit ölkə kimi əhəmiyyətini göstərir.

İranın Dəmir Yolu Tikintisi Dövlət Şirkətinin direktor müavini Abbas Xətibi İRİB televiziyasına müsahibəsində bildirib ki, Rusiya Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolu inşasının tezliklə başa çatdırılmasında maraqlıdır. Bu səbəbdən həmin ölkənin mütəxəssislərdən ibarət nümayəndə heyəti İranda səfərdə olub.

Artıq yolun Qəzvin-Rəşt hissəsi istismara verilib, Rəşt-Astara hissəsində isə işlər davam edir. Rusiya bu yolun elektrik xətlərinin çəkilməsi ilə yanaşı, onun tikintisinin sürətləndirilməsi üçün yardım edəcək. Abbas Xətibi həmçinin bildirib ki, "Şimal-Cənub" nəqliyyat dəhlizinə daxil olan bu yolla yüklər Rusiyadan Fars körfəzi ölkələrinə, Hindistana və digər Cənub-Şərqi Asiya ölkələrinə daşınacaq.

Rusiya 160 kilometrlik Rəşt-Astara dəmir yolunun tez bir zamanda istifadəyə verilməsinə çalışır ki, Asiya ölkələri ilə ticarət əlaqələrini genişləndirsin. Ölkəmizin ərazisindən keçəcək bu yol Rusiya, Azərbaycan və İranın dəmir yolları sistemlərini birləşdirəcək. Azərbaycan tranzit ölkə olaraq üzərinə götürdüyü öhdəlikləri yerinə yetirib. Yol hazır olduqdan sonra hər 3 dövlətin ticarət və tranzit əlaqələri artacaq ki, bu da büdcə gəlirlərinə valyuta axınını təmin edəcək.

Məlum sanksiyalar səbəbindən Rusiya həm də Asiya və Afrika bazarlarına daxil olmağa çalışır. Hazırda "Şimal-Cənub" nəqliyyat dəhlizi şimal qonşumuzun əsas ümid yeridir. Onu da qeyd edək ki, Rusiyanın Zəngəzur dəhlizinə maraq göstərməsi də alternativ marşrut əldə etmək istəyi ilə bağlıdır. Zəngəzur dəhlizinin fəaliyyəti Rusiya üçün yeni bir nəfəsliyin açılması deməkdir.

"Şimal-Cənub" dəhlizinin fəaliyyətə başlaması Çinin də marağındadır. Bu ölkə də ABŞ-la yaranan gərginlikdən, ola biləcək sanksiyalardan yayınmaq üçün yeni marşruta maraq göstərir. Ümumiyyətlə, Çin dünyanın ən böyük istehsalçısı kimi bütün istiqamətlərdə yeni ixrac marşrutlarının fəaliyyətə başlamasına dəstək verir. Bu ölkənin təşəbbüsü olan "Bir kəmər, bir yol" layihəsinin məqsədi də dünyaya daha çox məhsul ixrac etməkdir.

Beynəlxalq aləmdə baş verən bu yeni iqtisadi münasibətlər ölkəmizin xeyrinədir. Belə ki, Azərbaycan Avropa İttifaqı ilə yeni müstəvidə iqtisadi münasibətlər qurur. Azərbaycan həmçinin Avropa üçün mühüm tranzit ölkəsi kimi də önəmli rol almağa başlayıb. Ona görə ki, "Şərq-Qərb", "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərində açar ölkə Azərbaycandır. Ölkəmizin dünya ticarətinin aparılmasında önəmli rol oynaması bizə həm iqtisadi, həm də siyasi dividendlər qazandırır. Beləliklə, Azərbaycan dünyada mühüm əhəmiyyət daşıyan tranzit ölkəsi kimi yeni status qazanır.

Bəs bu nəqliyyat dəhlizinin üstünlükləri nədir? Birincisi, o, yüklərin daşınmasında vaxt və qiymət baxımından tərəflər üçün əlverişlidir. Yəni yüklərin nəqli alıcılar üçün tez və ucuz başa gəlir. İkincisi, yüklərin mənzilbaşına vaxtında çatdırılması üçün bütün texniki imkanlar mövcuddur. Məsələn, Asiyadan Avropaya göndərilən yüklərin Xəzər dənizinin üzərindən tez çatdırılması üçün güclü bərə donanması mövcuddur. Ən başlıcası, yüklərin bu marşrut üzərindən daşınması təhlükəsizdir. Odur ki, dünya Trans-Xəzər marşrutunu ən etibarlı yükdaşıma vasitəsi hesab edir.

"Şərq-Qərb" nəqliyyat dəhlizi ilə yüklərin daşınma müddətini 12 gündən 10 günə endirmək mümkündür. Bu fikir Türkiyənin nəqliyyat və infrastruktur naziri Adil Qaraismayıloğluya məxsusdur. Nazir həmçinin vurğulayıb ki, Rusiya-Ukrayna müharibəsi Şimal dəhlizi ilə yükdaşımaları məhdudlaşdırıb. Odur ki, Orta dəhliz məsafə və müddət baxımından böyük alternativ sayılır: "Anadolunun qərbindən başlayaraq şərqə uzanan bu yol ticarətin fərqli qitələrə, hətta dünyaya yayılmasına imkan verir. Çindən Avropaya gedən yük qatarı Orta dəhlizi və Türkiyəni seçərsə, 12 gün ərzində 10 min kilometr deyil, 7 min kilometr məsafə qət edəcək. Bu da Asiya və Avropa arasında qlobal ticarətdə dəhlizin nə qədər sərfəli və təhlükəsiz olduğunu nümayiş etdirir. Belə ki, Süveyş kanalı üzərindən gəmi 20 min kilometr yol qət edir. Orta dəhliz öz imkanları və region ölkələrinin koordinasiyalı əməkdaşlığı ilə dünya ticarətinin ən mühüm həlqələrindən biri olacaq. Biz Orta dəhlizi daha da gücləndirəcəyik".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Polşalı qonaqlar İlahiyyat İnstitutunda olublar

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Azərbaycan Respublikasının Polşa Respublikasındakı səfirliyi və "Həyat sözü" Xristian Dini İcmasının birgə təşkilatçılığı ilə Varşava Böyük Keşişlər Seminariyasının rektoru Voyçex Bartkoviçin rəhbərlik etdiyi nümayəndə heyəti sentyabrın 7-dən ölkəmizdə rəsmi səfərdədir. Səfərdə məqsəd Azərbaycandakı dini həmrəylik, tolerantlıq mühiti, xristian, eləcə də Alban dini məbədləri, polyak mirası və icması ilə tanış olmaqdır.



Nümayəndə heyəti sentyabrın 13-də Azərbaycan İlahiyyat İnstitutunda (AİI) olub. Qonaqlar AİI rektoru Aqil Şirinovla görüşərək ikitərəfli əlaqələrin qurulması haqqında fikir mübadiləsi aparıblar. AİI rektoru Aqil Şirinov ali təhsil müəssisəsi haqqında qonaqlara geniş məlumat verib. AİI-nin fəaliyyəti, ölkədaxili və xarici əlaqələri, ölkəmizin multikultural və tolerantlıq ənənələrinin təbliğindəki rolu, gələcək hədəfləri barədə danışıb. Bildirib ki, institutda bakalavriat, magistratura və doktorantura pillələri üzrə tədris aparılır. O, AİI-də mövcud olan "İslamşünaslıq" və "Dinşünaslıq" ixtisasları, keçirilən fənlər barədə söhbət açıb.

Qonaqlar Azərbaycan İlahiyyat İnstitutunda olmaqdan məmnunluqlarını ifadə edib, ali təhsil müəssisəsinin fəaliyyətinə uğurlar arzulayıblar.

*"Azərbaycan"*




# OXUCULARIN NƏZƏRİNƏ!

***"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| ***"Azərpoçt" MMC*** | *(012) 598-49-55, (051) 225-02-13* |
| ***"Qaya" firması*** | *(012) 566-77-80, (050) 214-40-53* |
| ***"Region Press" MMC*** | *(055) 316-79-01, (050) 316-79-01* |
| ***"Səma-M" MMC*** | *(012) 594-09-59* |
| ***"Ziya" LTD*** | *(012) 497-76-96, (050) 306-77-22* |
| ***"Pressinform" MMC*** | *(012) 598-49-52, (070) 340-01-00* |
| ***"City press" MMC*** | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*

# Avropa İttifaqından kapital axını sürətlənib

## Qlobal böhrandan narahat olan investorlar artıq banklardan 83 milyard avro çıxarıblar

Avropa İttifaqından kapital axını davam edir. İnvestorlar Avropa aktivlərindən qurtulurlar. Proses çox sürətlə reallaşır. "Bloomberg" agentliyinin məlumatına görə, son altı ayda avrozonadan 83 milyard avro "sızıb". Mütəxəssislər isə xəbərdarlıq edirlər ki, bu hələ son hədd deyil və itkilər artacaq.



### Enerji böhranı getdikcə ağırlaşır

Analitiklər vəsaitlərin xaricə axınını Ukraynadakı münaqişə, yaxınlaşan qış və bu fonda Rusiya ilə aralarında davam edən qaz mübahisəsi, habelə Avrozonada rekord inflyasiya ilə əlaqələndirirlər. Bundan əlavə, ilin sonuna qədər bir çox Aİ ölkələrində, o cümlədən Almaniyada tənəzzül gözlənilir. Hər kəs üçün gözlənilmədən Avropa Mərkəzi Bankının (AMB) yeni "qırğı siyasəti" də investorlara mənfi təsir göstərib. Avropanın problemlərin öhdəsindən necə gələcəyini yalnız təxmin etmək olar və investorlar ilk olaraq bunu öyrənmək üçün yerlərində dayanmaq niyyətində deyillər.

Gedənlər arasında ABŞ-ın "BlackRock Inc." investisiya şirkəti və Avropanın ən böyük aktivlərin idarə edilməsi korporasiyası olan "Amundi SA" (Fransa) da var.

Almaniyanın transmilli "Deutsche Bank AG" bankı itkilərin artacağını proqnozlaşdırır. Avropanın problemləri son aylarda xüsusilə ağırlaşıb, çünki region tənəzzül təhlükəsindən xəbərdardır və AMB inflyasiyanın qarşısını almaq üçün aqressiv kampaniyaya başlayıb ki, bu da həmişə əsas faiz artımına gətirib çıxarır. Enerji böhranı da getdikcə ağırlaşır. "Şimal axını 1"in yenidən nə vaxt işə başlayacağı və Rusiyanın ümumiyyətlə, onu işə salıb-salmayacağı hələlik məlum deyil. Bundan əvvəl Kreml Avropanın Moskvaya qarşı tətbiq etdiyi iqtisadi sanksiyalarının ləğvini tələb edib.

### Problemlərin sonu görünmür

Bu arada bəzi Avropa hökumətləri öz ölkələrində borcun ÜDM-ə nisbətinin 150 faizdən çox olduğunu bildiriblər. Yunanıstanda və İtaliyada isə defolt yaranır. Bundan əlavə, Aİ-nin vahid valyutası düşür və vaxtaşırı ABŞ valyutasından ucuz olur. Qeyd edək ki, son iki onillikdə belə hal müşahidə olunmamışdı.

"Enerji böhranını nəzərə alaraq, bir neçə ay ərzində Avropada tənəzzül gözləyirik. Amma biz hesab etmirik ki, səhmlər buna tam reaksiya verib", - deyə Londondakı "Black Rock" kompaniyasının baş qlobal investisiya strateqi Vey Li bildirib.

Beləliklə, bir çox analitiklər hesab edirlər ki, Avropa fond bazarında ən pis vəziyyət hələ qarşıdadır. Avrozonada tənəzzül ehtimalı 60 faizə yüksəlib.

Aİ üçün sonuncu dəfə belə bədbin proqnoz 2019-cu ildə, pandemiyanın başlanğıcında olub. O vaxt investorlar Avropa səhmlərindən təxminən 80 milyard avro çıxarıblar. Ancaq bu, bütövlükdə koronavirus böhranı dövründə baş vermişdi. Mövcud problemlərin isə sonu görünmür.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Sığorta sektorunda ləğv edilmiş lisenziyalar barədə məlumat

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.3-cü maddəsinə əsasən 12 ay ərzində lisenziyalarının qüvvəsinin iki dəfə dayandırılmasına səbəb olmuş hal, lisenziyaların qüvvəsinin həmin hal əsasında sonuncu dəfə dayandırıldığı tarixdən etibarən 9 ay ərzində təkrar yarandığını nəzərə alaraq Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 07 sentyabr 2022-ci il tarixli qərarı ilə siyahıda göstərilən (siyahı əlavə olunur) 4 nəfər fiziki şəxsə sığorta agenti fəaliyyətinə verilmiş lisenziyalar ləğv edilmişdir.

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.3-cü maddəsinə əsasən lisenziyaları ləğv edilən fiziki şəxs olan sığorta agentlərinin

**SİYAHISI**

| № | Lisenziya sahibinin adı | Lisenziyanın verilmə tarixi | Lisenziyanın nömrəsi | VÖEN |
|---|---|---|---|---|
| 1 | Bayramov Elçin Binyamin oğlu | 24.01.2014 | 080502 | 3000818522 |
| 2 | Gülməmmədov Rəşad Rövşən oğlu | 09.02.2011 | 000387 | 5400347182 |
| 3 | Quliyev Tural Tamil oğlu | 03.05.2013 | 000925 | 2302233082 |
| 4 | Quliyeva Çinarə Vilayət qızı | 18.02.2010 | 000329 | 1001819422 |

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

# Bəzi yerlərdə yağış yağacaq

Azərbaycanda sentyabrın 14-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq, əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyinin əsəcəyi, gündüz arabir güclənəcəyi gözlənilir. Havanın temperaturunun gecə 19-22°, gündüz 25-29° isti, Bakıda gecə 20-22°, gündüz 26-28° isti olacağı ehtimal edilir.

Atmosfer təzyiqi 755 millimetr civə sütunundan 759 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 60-65 faiz təşkil edəcək.




Azərbaycanın əsasən şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı proqnozlaşdırılır. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 18-22°, gündüz 27-32° isti, dağlarda gecə 6-10°, gündüz 12-17° isti olacağı bildirilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 14-19°, gündüz 27-32° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 14-18° isti olacağı ehtimal edilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 14-18° isti olacağı ehtimalı var.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 23-28° isti olacağı proqnozlaşdırılır.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 13-18°, gündüz 21-26° isti, dağlarda gecə 7-12°, gündüz 12-16° isti olacağı bildirilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşama doğru bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 18-22°, gündüz 27-32° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarının bəzi yerlərində əsasən səhər və axşam şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Dağlarda duman olacaq. Şimal-şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə güclənəcək. Havanın temperaturu gecə 19-21°, gündüz 26-31° isti, dağlarda gecə 15-17°, gündüz 17-22° isti olacaq.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin əməkdaşları MSK Katibliyinin müdiri İlqar Əlizadəyə əzizi
**AYDIN QULİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə əzizi, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu
**FƏRİD KƏMALƏDDİN OĞLU MEHBALIYEVİN**
şəhid olması ilə bağlı kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşları şöbənin sektor müdiri Ceyhun Quliyevə atası
**AYDIN QULİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclis Aparatının və İşlər İdarəsinin kollektivləri Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin sektor müdiri Ceyhun Quliyevə atası
**AYDIN QULİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor Hicran Hüseynova və komitənin üzvləri Milli Məclisin deputatı Səttar Möhbalıyevə əzizi, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu
**FƏRİD MEHBALIYEVİN**
şəhid olması ilə bağlı kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə əzizi, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu
**FƏRİD MEHBALIYEVİN**
şəhid olması ilə bağlı kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının İcraiyyə Komitəsi AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə əzizi, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu
**FƏRİD MEHBALIYEVİN**
şəhid olması ilə bağlı kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Amil Novruzov, İxtiyar Hüseynli, Elçin Vəliyev, Rəşad Cəfərli və Rəşad Baxşəliyev Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin sektor müdiri Ceyhun Quliyevə atası
**AYDIN QULİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin kollektivi Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri Hafiz Nəsibova atası
**QƏNBƏR NƏSİBOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə əzizi, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu
**FƏRİD MEHBALIYEVİN**
şəhid olması ilə bağlı kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Ləman Əliyevaya atası
**ALEKSANDR ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə əzizi
**FƏRİD MEHBALIYEVİN**
şəhid olması ilə bağlı kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Xaçmaz Rayon Məhkəməsinin sədri Xıdır Quliyev və məhkəmənin kollektivi Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri Hafiz Nəsibova atası
**QƏNBƏR NƏSİBOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 6473**
**Sifariş 2590**
**Qiyməti 40 qəpik**